QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

"Minsk qrupuna bu gün heç bir ehtiyac yoxdur, ola da bilməz"

Qlobal Bakı Forumu:
dünya düzəninə yeni baxış

Prezident İlham Əliyev: "Azərbaycan sülh prosesinə bağlıdır və əslində, həmin sülh müqaviləsinin müəllifidir"

№ 047 (7215)

14 mart 2025-ci il.
Qiyməti 60 qəpik

Amerika kimi aldadır?

Vaşinqtonun "atəşkəs" çağırışına Rusiya necə cavab verəcək?

Çaylar quruyur, fəlakət yaxınlaşır

Adında kredit olan şəxs sosial ev əldə edə bilər?

Mülki aviasiyamız beynəlxalq standartlara uyğun qurulur

Tramp Zelenskini "yola salır"...

Zombiyönümlü təhsil sistemi

Qlobal Bakı Forumu: dünya düzəninə yeni baxış

Prezident İlham Əliyev: "Azərbaycan sülh prosesinə bağlıdır və əslində, həmin sülh müqaviləsinin müəllifidir"

Beynəlxalq münasibətlər sistemində güclü ölkə olan Azərbaycanın uğurlarının əsasında uzaqgörən və praqmatik xarici siyasət strategiyası dayanır. Azərbaycanın dinamik inkişafı, bütün sahələri əhatə edən məqsədyönlü islahatlar və əldə edilən nailiyyətlər beynəlxalq müstəvidə yüksək qiymətləndirilir. Bu gün ölkəmizin bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi deyil, eyni zamanda, bir çox qərarların qəbulunda və icrasında yaxından iştirakı, əlbəttə ki, cəkisinin göstəricisidir. Cox vacib beynəlxalq forumlara və tədbirlərə ev sahibliyi edərək, qlobal və regional sabitliyə töhfəsini verən Azərbaycan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Dünya Dini Liderlərinin Forumu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və onlarla belə tədbirləri yüksək səviyyədə keçirməklə, dünyanın diqqətində olur. Sözsüz ki, bu cür tədbirlərlə xalqlar və dövlətlər arasında əməkdaşlığa xidmət edir. Paytaxt Bakımızda Martın 13-də Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusunda XII Qlobal Bakı Forumu regionda aparıcı aktora çevrilən Azərbaycanın beynəlxalq nüfuzunu, beynəlxalq məsələlərin tənzimlənməsində mühüm rol oynadığını bir daha ortaya qoyur.

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq platformaya çevrilib. Mərkəzin təşkil etdiyi tədbirlərə marağın ildənilə artmasi da məhz bunun məntiqi nəticəsidir. Qlobal Bakı Forumu geniş fikir müxtəlifliyini təmsil edən insanları neytral və mehriban bir mühitdə bir araya gətirərək, onların dünyanın qlobal çağırışları ilə bağlı fikir mübadiləsi aparmasına imkan yaradır.

"QLOBAL BAKI FORUMU HAZIRDA APARICI BEYNƏLXALQ PLATFORMALARDAN BİRİDİR"

"Nizami Gəncəvi Beynəlxalq Mərkəzini təbrik edirəm ki, son illər ərzində çox əla işlər aparmışdır və belə bir mühüm beynəlxalq tədbiri təşkil edir". Bu sözləri Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında deyib. Dövlətimizin başçısı bildirib: "Biz çox fərəhlənirik ki, Qlobal Bakı Forumu hazırda aparıcı beynəlxalq platformalardan biridir. Orada qlobal gündəlikdə dayanan məsələlər müzakirə olunur".

Əvvəlki forumlarda olduğu kimi, bu tədbirdə də dünyanın müxtəlif ölkələrinin prezidentləri, Baş nazirləri, nazirləri, parlamentariləri, həmçinin sabiq dövlət və hökumət rəhbərləri, beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər. Məhz bu tərkibdə olan insanların bir araya gələrək parçalanmış dünyada olan bütün maneələrə qarşı birgə mübarizə aparmaqda əhəmiyyətlidir. Builki Forumun mövzusu son zamanlar xüsusilə aktual olan məsələləri əks etdirir: "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi". Qeyd edək ki, bu tədbirin təşkilatçısı olan Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin Vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda Mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" mövzusuna həsr olunan budəfəki Forumda dünyanın müxtəlif regionlarından 400-ə yaxın nüfuzlu siyasi xadim, o cümlədən azı 50 fəaliyyətdə olan və sabiq prezident, Baş nazir, həmçinin BMT strukturlarının rəhbərləri, Nobel mükafatı laureatları, alimlər və ekspertlər iştirak edirlər.

XII Qlobal Bakı Forumu əvvəlki illərdə olduğu kimi, qlobal çağırışların həlli üçün geniş mövzu spektri və dərin müzakirələri ilə mühüm platforma rolunu oynayacaq. Burada aparılacaq diskussiyalar beynəlxalq əməkdaşlığın möhkəmlənməsinə, ortaq həll yollarının müəyyənləşdirilməsinə və sülhün təşviqinə töhfə verəcək.

"BİZ İŞĞAL İLLƏRİNİ YADDAN ÇIXARA BİLMƏRİK VƏ ÇIXARMAYACAĞIQ"

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi fəal praqmatik siyasət, dünya miqyasında nüfuzlu siyasətçi imici, liderlik xüsusiyyətləridir ki, bu gün ölkəmiz böyük imicə sahibdir.

Ardı Səh. 3

Qlobal Bakı Forumu: dünya düzəninə yeni baxış

Prezident İlham Əliyev: "Azərbaycan sülh prosesinə bağlıdır və əslində, həmin sülh müqaviləsinin müəllifidir"

Əvvəli Səh. 2

Azərbaycanın artan beynəlxalq nüfuzu, beynəlxalq məsələlərin tənzimlənməsində mühüm rol oynayır. Belə ki, ölkəmiz çox vacib beynəlxalq forumlara və tədbirlərə ev sahibliyi edərək, qlobal və regional sabitliyə töhfəsini verir. Bu gün Cənubi Qafqazda yeni reallıqlar yaradan Azərbaycan sülh prosesinə sadiqdir. Azərbaycan Ermənistanla münasibətlərin sülh yolu ilə həllinə töhfə vermək üçün ciddi addımlar atır. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış edərək sülh yolu ilə həllin beş əsas prinsipini işləyib hazırladı. "Ermə-

nistan-Azərbaycan prosesinə gəldikdə, biz işğal illərini yaddan çıxara bilmərik və çıxarmayacağıq", - deyə Prezident İlham Əliyev çıxışında bildirib. "Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətləri və Ermənistanın təcavüzünün məhz bizə verdiyi ziyanı bilirik. Biz azad olunmuş ərazilərimizdə görürük ki, barbarlığın səviyyəsi nə yerdədir. Bütün şəhərlər, kəndlər yerlə-yeksan olunub və onlar bizim kəndləri-

mizə, şəhərlərimizə, bizim dinimizə və tarixi irsimizə qarşı bilərəkdən belə hərəkətlər etmişlər. 65 məscidi dağıtmışdılar", - deyə dövlətimizin başçısı əlavə edib.

"BİZ CƏNUBİ QAFQAZDA SÜLH QURMALIYIQ"

Məlumdur ki, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərksilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Azərbaycan Ordusu 2023-cü ilin sentyabrın 19-da bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı. Düşmən ağ bayraq qaldıraraq təslim oldu. Bununla da Azərbaycanın bütün ərazilərində Konstitusiya quruluşu bərpa edilib.

Bu gün Azərbaycan regionda mühüm söz sahibi və sabitləşdirici qüvvə kimi çıxış edərək, beynəlxalq əməkdaşlığın güclənməsinə töhfə verir. 2020-ci ilin Vətən müharibəsində qazanılan tarixi Qələbə və ərazi bütövlüyünün bərpası ölkəmizə olan marağı daha da artırıb. Strateji coğrafi mövqeyi sayəsində Azərbaycan Şərqlə Qərbi, Şi-

malla Cənubu birləşdirən əsas nəqliyyat və logistika qovşağına çevrilib. Ölkəmiz qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında regionda sabitliyin və inkişafın təmin olunmasına çalışır. Prezident İlham Əliyevin qətiyyətli liderliyi, etibarlı siyasəti və yaradılan əlverişli biznes mühiti Azərbaycanın beynəlxalq nüfuzunun və tərəfdaş ölkələrlə əməkdaşlıq imkanlarının durmadan genişlənməsini təmin edir. Azərbaycan İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış edib. İki dövlət arasında münasibətlərin yaradılması üçün baza prinsiplərinə dair təklifi vasitəçilər tərəfindən Ermənistana təqdim edilib. "Biz Cənubi Qafqazda sülh qurmalıyıq", - deyən dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan sülh prosesinə

bağlıdır və əslində, həmin sülh müqaviləsinin müəllifidir. Bildirib ki, sülh müqaviləsi Ermənistanla Azərbaycan arasında müzakirə edilir və demək olar bəndlərin artıq əksər hissəsi razılaşdırılıb.

Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında onilliklərlə erməni diasporunu dəstəkləyən korrupsiyaya uğramış siyasətçilərdən danışıb. Dövlətimizin başçısı bununla bağlı deyib: "...biz bu məsələləri Ermənistan nümayəndələri ilə, onların Brüsseldə əyləşən yeni rəh-

bərləri ilə qaldırırıq. İndi onlar böyük qardaşını dəyişiblər. İndi həmin o böyük qardaş Brüsseldir. Prezident Tramp Dövlət Departamentində belə bir addım atdı ki, USAID ləğv olundu, korrupsiyaya uğramış siyasətçi Robert Menendes də cəzalandırıldı. Amma o, sonuncu olmalı deyil. Yəni, necə deyərlər, bir qaranquşla bahar olmaz? Çünki onlar pulları onlardan alıb ciblərinə qoyurlar. Məsələn, cənab Adam Şif, cənab Frank Pallone, xanım Nensi Pelosi və bir çox digərləri. Onlar onilliklərlə erməni diaspor təşkilatlarından ABŞ-da o pulları alırdılar ki, Azərbaycana hücum çəksinlər, gözdən salsınlar".

"BİZ COVID DÖVRÜNDƏ MÜXTƏLİF VƏZİYYƏTLƏRDƏ ÜZV DÖVLƏTLƏRƏ DƏSTƏK VERİRDİK"

Beynəlxalq aləmdə 120 ölkə arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında mühüm siyasi platforma olan Qoşulmama Hərəkatı Azərbaycanın sədrliyi dövründə ən uğurlu dövrünü yaşamış oldu. Ölkəmizin Qoşulmama Hərəkatına üzv olduqdan cəmi 8 il sonra ölkələrinin yekdil qərarı ilə təşkilata sədrlik etmək kimi statusa malik olması Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini gücləndirməsi, ikitərəfli və çoxtərəfli münasibətlərini inkişaf etdirməsi baxımından ölkəmizə mühüm dividendlər gətirir. Azərbaycan Qoşulmama Hərəkatına sədrliyinin COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı zamanda Bakı qlobal liderlik rolunu üzərinə götürdü, qlobal problemin öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk dövlətlərdən oldu. "Biz dörd il ərzində Qoşulmama Hərəkatında sədrlik etdik, təşkilatda 120 ölkə var. Biz COVID dövründə müxtəlif vəziyyətlərdə üzv dövlətlərə dəstək verirdik. Humanitar və maliyyə yardımına gəldikdə, 80-dən artıq ölkəyə kömək etdik" - deyən Prezident qeyd edib: "Eyni zamanda, biz Avropadakı tərəfdaşlar ilə fəal əlaqələri

saxlayırdıq. Bütün bunlar bir növ Qlobal Cənub ilə Qlobal Şimal arasında körpülərin salınmasına bənzəyirdi".

XII Qlobal Bakı Forumunda qlobal aktual problemlər, çoxtərəfli diplomatiya, çoxqütblü dünya nizamı, BMT-nin gələcək paktı, postmünaqişə dövründə bərpa-quruculuq işləri və orta güclərin yeni dünya düzənində rolu kimi vacib mövzular müzakirə olunur. Tədbir beynəlxalq liderləri bir araya gətirərək qlobal siyasət, təhlükəsizlik, texno-

logiya və sülh kimi məsələlərin müzakirəsinə şərait yaradır. Forumda yeni texnologiyalar, gender və təhlükəsizlik, iqlim dəyişikliyinin təsiri, qlobal səhiyyə böhranları və onların həlli yolları da diqqət mərkəzindədir. Göründüyü kimi, ildən-ilə iştirakçılarının sayı artan Qlobal Bakı Forumunun mövzularının əhatə dairəsi də genişlənir. Prezident İlham Əliyevin uzaqgörən və davamlı siyasəti nəticəsində Azərbaycan bu gün sabitlik və təhlükəsizlik adasına çevrilib. Ölkəmiz siyasi-ictimai sabitliyi, dinamik iqtisadi inkişafı, uğurlu xarici siyasəti və sosial rifah səviyyəsi ilə beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir. Azərbaycanın nüfuzu getdikcə artmaqla yanaşı, ölkə qlobal miqyasda sivilizasiyalararası dialoq və əməkdaşlığın mühüm platformasına çevrilib. Forumun Bakıda keçirilməsi də Azərbaycanın bu sahədə oynadığı strateji rolu və beynəlxalq arenadakı mövqeyini bir daha təsdiqləyir.

Azərbaycanın xarici siyasəti ölkənin milli təhlükəsizliyinin etibarlı təminatıdır. Müasir dövrdə dünya siyasətində dəyişikliklərin baş verdiyi, bəzən ədalətə, bəzən də ikili standartlara əsaslanan yanaşmaların müşahidə olunduğu bir dövrdə Azərbaycanın müstəqil siyasət həyata keçirərək, dəyişməz mövqeyini sərgiləyir.

Zümrüd BAYRAMOVA

Azərbaycan həm etibarlı tərəfdaş, həm də mühüm dialoq mərkəzidir!

Prezident İlham Əliyev Bakıda səfərdə olan bir sıra dövlət və hökumət rəhbərlərini, habelə beynəlxalq təşkilatların təmsilçilərini qəbul edib

Prezident İlham Əliyev martın 13-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay ilə görüşüb. İlk növbədə COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdıran Bayram Beqay bu tədbir çərçivəsində aparılan danışıqlar prosesində ciddi nailiyyətlər əldə edildiyini və iqlim gündəliyi ilə əlaqədar vacib qərarların qəbul olunduğunu vurğuladı.

Qonaq Azərbaycan ilə Albaniya arasında siyasi əlaqələrlə yanaşı, iqtisadi-ticari, enerji, turizm və digər sahələrdə də əməkdaşlığın uğurla davam etdirildiyini dedi və bu xüsusda TAP layihəsinin əhəmiyyətinə toxundu, Azərbaycanın Albaniyanın qazlaşdırılması istiqamətində həyata keçirdiyi layihədən məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi, COP29-a hazırlıq üçün ölkəmizin qısa vaxtı olmasına baxmayaraq, bütün təşkilati işlərin yüksək səviyyədə həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev də öz növbəsində COP29-da iqlim gündəliyi ilə əlaqədar olduqca mühüm qərarların qəbul edildiyini məmnunluqla xatırladı.

İkitərəfli münasibətlərə toxunan dövlətimizin başçısı Azərbaycan ilə Albaniya arasında dostluq əlaqələrinin mövcud olduğunu vurğuladı, enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini dedi, Azərbaycanın Albaniyanın qazlaşdırılması layihəsində iştirakına toxundu. Söhbət zamanı əməkdaşlığın perspektivləri və ikitərəfli gündəliyə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Görüşdə XII Qlobal Bakı Forumunun beynəlxalq gündəlikdə duran məsələlərinin müzakirəsi baxımından əhəmiyyətinə toxunuldu. Bayram Beqay bu tədbirdə mütəmadi olaraq iştirak etməsini məmnunluqla vurğuladı.

Prezident İlham Əliyev dünən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelka Tsviyanoviç ilə görüşüb. Prezident İlham Əliyev Bosniya və Herseqovinaya rəsmi səfərini və səfər çərçivəsində Jelka Tsviyanoviç ilə keçirdiyi görüşü, aparılmış müzakirələri məmnunluqla xatırladı.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XII Qlobal Bakı Forumuna dəvətə görə dövlətimizin başçısına təşəkkürünü bildirən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri bu Forumun yüksək səviyyədə təşkil olunduğunu, tədbir çərçivəsində qlobal gündəliyə aid mühüm məsələlərin müzakirə edildiyini vurğuladı.

Jelka Tsviyanoviç COP29 zamanı Azərbaycana səfərini və Prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırladı, COP29 çərçivəsində əldə edilən nailiyyətləri yüksək qiymətləndirdi. Azərbaycan Prezidenti İlham Əliyev martın 13-də Bolqarıstanın xarici işlər naziri Georq Georqievi qəbul edib. Qonaq XII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunaraq, bu tədbirdə vacib məsələlərin müzakirə olunduğunu vurğuladı.

Georq Georqiev Azərbaycanla Bolqarıstan arasında dostluq münasibətlərinin olduğunu deyərək, əməkdaşlığımızın bu prinsiplər əsasında hərtərəfli inkişaf etdiyini bildirdi. Bu xüsusda, o, ölkələrimiz arasında iqtisadi-ticari, enerji, o cümlədən bərpaolunan enerji, nəqliyyat, mədəniyyət, turizm, insanlararası əlaqələr və digər sahələrdə əməkdaşlıq üçün böyük perspektivlərin olduğunu dedi. Bolqarıstanın xarici işlər naziri Bakı ilə Sofiya arasında birbaşa uçuşların həyata keçirilməsinin vacibliyinə toxundu. Prezident İlham Əliyev Bolqarıstana rəsmi səfərini və səfər çərçivəsində keçirdiyi görüşləri məmnunluqla xatırladı.

Dövlətimizin başçısı əlaqələrimizin inkişafını qeyd edərək, enerji sahəsində əməkdaşlığa toxundu. Prezident İlham Əliyev Azərbaycan qazının bu gün Bolqarıstan bazarına çatdırılmasının əhəmiyyətini və bunun Bolqarıstanın enerji təminatında rolunu vurğuladı.

Azərbaycanla Bolqarıstanın bərpaolunan enerji sahəsində əməkdaşlığı məsələsi qeyd edildi. Dövlətimizin başçısı, bu xüsusda, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında bərpaolunan enerji layihəsinə Bolqarıstanın da bir tərəfdaş kimi qoşulması münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev martın 13-də Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birolu qəbul edib. Dövlətimizin başçısı əvvəlcə Fatih Birola "Dostluq" ordenini təqdim etdi. Fatih Birol bu ordenə COP29-da Azərbaycanın sədrliyinə və qlobal iqlim dəyişmələri üzrə irəli sürdüyü təşəbbüslərin təşviqinə verdiyi dəstəyə və səmərəli əməkdaşlığa görə layiq görülüb. Prezident İlham Əliyev Fatih Birola ölkəmizlə həyata keçirdiyi əməkdaşlığa və COP29-da göstərdiyi dəstəyə görə təşəkkürünü bildirdi. Fatih Birol da öz növbəsində "Dostluq" ordeni ilə təltif olunmasından böyük qürur hissi duyduğunu dedi.

O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını və etibarlı tərəfdaş olduğunu vurğuladı. COP29-da əldə olunmuş nəticələr münasibətilə təbriklərini çatdıran Fatih Birol bu tədbirdə çox çətin və mürəkkəb danışıqlar prosesinin aparıldığını dedi və iqlim gündəliyi ilə əlaqədar yaxşı nəticələrin əldə edildiyini diqqətə çatdırdı. Fatih Birol XII Qlobal Bakı Forumuna dəvətə görə təşəkkürünü bildirərək, bu tədbiri beynəlxalq səviyyədə mühüm məsələlərinin müzakirəsi baxımından vacib platforma kimi qiymətləndirdi. O, gələcəkdə də Forumla əməkdaşlıq imkanları ilə bağlı fikirlərini bölüşdü. Söhbət zamanı qlobal enerji məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Prezident İlham Əliyev martın 13-də Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesusu qəbul edib. Tedros Adhanom Qebreyesus COP29-un Azərbaycanda uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı və bu konfrans çərçivəsində əldə olunmuş nəticələri yüksək qiymətləndirdiklərini dedi. Prezident İlham Əliyev COP29-a hazırlıqla bağlı vaxtın az olmasına baxmayaraq, Azərbaycan tərəfindən bu tədbirin yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri işlərin görüldüyünü qeyd etdi.

Tedros Adhanom Qebreyesus Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatına verdiyi dəstəyə və könüllü maliyyə töhfələrinə görə təşəkkürünü bildirərək, rəhbərlik etdiyi qurumun Azərbaycanla birlikdə müxtəlif ölkələrdə həyata keçirilmiş layihələrin önəminə toxundu. Görüşdə Azərbaycanla Ümumdünya Səhiyyə Təşkilatı arasında əməkdaşlıq məsələlərinə, həmçinin BMT strukturlarının gələcək fəaliyyətinə dair fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti İlham Əliyev dünən BMT-nin Ticarət və İnkişaf Konfransının (UNCTAD) baş katibi Rebeka Qrinspanı qəbul edib. Rebeka Qrinspan COP29-un ölkəmizdə yüksək səviyyədə keçirilməsi və həmin tədbirdə çox mühüm nəticələrin əldə edilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Söhbət zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin XII Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunularaq, beynəlxalq səviyyəli mühüm məsələlərin müzakirəsi üçün bu tədbirin böyük rol oynadığı vurğulandı.

Görüşdə ölkəmizlə BMT strukturları arasında uğurlu əməkdaşlığın həyata keçirilməsindən məmnunluq ifadə olundu, Azərbaycanın BMT institutlarının fəaliyyətinə verdiyi könüllü maliyyə töhfələri qeyd edildi. Ölkəmizin 2026-cı ildə Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyi bildirildi, Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədləri sahəsindəki nailiyyətləri yüksək qiymətləndirildi.

“Minsk qrupuna bu gün heç bir ehtiyac yoxdur, ola da bilməz”

”Ermənistanın Azərbaycana qarşı iddialarına baxdıqda görürük ki, bəzi havadarlarının dəstəyi ilə onlar artıq keçmişin bir aləti olan, hər hansı bir funksiyası olmayan Minsk qrupunun hər bir vəchlə saxlanmasına da cəhd göstərirlər. Minsk qrupuna bu gün heç bir ehtiyac yoxdur, ola da bilməz. Əgər kimsə Minsk qrupunu dirçəltməyə çalışa bilərsə, bunlar yalnız utopik fikirlər ola bilər.” Bu sözləri jurnalistlərə açıqlamasında Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev söyləyib.

Prezidentin köməkçisi deyib ki, Minsk qrupu yaradılanda onun təməlini məhz münaqişənin həll edilməsi təşkil edirdi. ”Münaqişə yoxdur. Ermənistanla Azərbaycan arasında normallaşma prosesinin getdiyi bir şəraitdə Ermənistan tərəfi yenə də səmimiyyət nümayiş etdirməyərək Minsk qrupu kimi lazımsız bir alətin saxlanmasına çalışır”, - deyə H.Hacıyev bildirib. Azərbaycanın bu məsələdə israrlı olduğunu qeyd edən Prezidentin köməkçisi vurğulayıb: ”Hesab edirik ki, bu kimi məsələlər, xüsusilə də Ermənistanın Konstitusiyası ilə bağlı məsələləri aradan qaldırmasından sonra regionda sülh gündəliyi üçün daha yaxşı şərtlər formalaşa bilər”.

Baharı gətirən SƏMƏNİ

Təbiətin ilk cücərtisi, yaşıl rəngi səməni... Yaşıl donlu, incə belli səməni. Elə-aləmə baharın gəldiyini müjdələdiyi üçün sevilərək, əzizlənərək belinə qırmızı lent də bağlanan, Novruz süfrələrini bəzəyən, el-el, ev-ev gəzən, nişanlı qızların ”görüşünə gedən”, təzə gəlinlərin xonçasını rövnəqləndirən, ruzi-bərəkət rəmzi səməni.

Bilirsənmi, sən hansı zamandan arzulanırsan? Payızın ortalarından başlayan ayaz-soyuq dağların, çəmənlərin, bağların yaşılına qənim kəsilib onları sarı xəzələ çevirəndən... Qışın qarı-şaxtası hər yanı aylar uzunu bəyazlara bürüyəndən... Zamanın bu kəsiyində insanların gözləri yaşıla həsrət qalandan.

Qışın böyük çilləsini yola salan, kiçik çilləsini başa vuran, Boz aya qədəm qoyan insanın ruhu sanki baharı səsləyir. Yaşıl rəngin min bir çaları ilə təbiətə dirilik, ömrə bəzək gətirən baharı. Gözlər yaşılı axtarır. Bax, bu zaman sən arzulanırsan, səməni. Çünki baharı sən gətirirsən. Novruzaqədərki çərşənbələrin bir-birinin ardınca suya hərarət, torpağa istilik, yelin, odun yurdumuza ilıq nəfəs bəxş etməsini bayram edərkən sən hökmən o bayram şənliklərinin, süfrələrinin bəzəyi olmalısan. Elə buna görə də Novruza 10-15 gün qalmış hər bir evdə xoş sözlərlə, xeyir-dualarla səni cücərdərlər ki, vaxta-vədəyə özünü yetirə biləsən. Sən o qədər sevimlisən ki, ana-nənələrimiz sənə zinət vurmaqdan usanmır.

Səməni bolluğun, firavanlığın rəmzidir. Həm də səməni cücərtmək adəti heç də boş yerə yaranmayıb. Qədimdə torpaq oyanana yaxın bir az buğda götürüb cücərdərdilər ki, görsünlər, bu toxumluq üçün yaxşıdır, ya pis. Elə o vaxtdan ta bu günə kimi səməni cücərtmək bir adət halını almışdır. Gözümüzü dünyaya açıb özümüzü dərk edəndən ananənələrimizin bayramqabağı səməni cücərtməsinin şahidi olub öyrənmişik.

Zaman keçdikcə səməni də fərqli şəkildə cücərdilməyə başlandı. Məsələn, milli ornamentimiz olan buta formasında. Burada sanki iki rəmz birləşərək Novruz bayramının gözəlliyinə daha bir gözəllik qatır. Bayrağımızdakı səkkizguşəli ulduz formasında səməni daha gözəl alınır. Fərqli formalarda səmənilərin cücərdilməsi həm qadınlarımızın təxəyyülünü, həm də səliqə-sahmanını ortaya çıxarır. Bayram mərasimlərinə, evlərə, süfrələrə daha bir gözəllik qatır.

Əvvəllər tək-tək adam tapılardı ki, səmənini pulla alsın, amma indi əksər qadınlar tənbəllik edib səmənini almağa üstünlük verir. Amma, məncə, hər kəs bunu evində cücərtsə, daha maraqlı olar. Həm ruzi-bərəkət baxımından, həm də səməninin boy atmasını izləmək insana xoş təsir bağışlayır. Səmənilər becərən, onlara su verən xanımlarımız bayatılar da söylərlər. Səmənilər də sanki bu bayatılardan ilham alıb böyüyər:

Ay səməni, səməni,
Utandırma, sən məni,
Yaşılın qoy bol olsun,
Heyran etsin çəməni.
Əzizim yaşıl çəmən,
Yaşıl bağ, yaşıl çəmən,
Qoy səmənidən alsın,
Bu rəngi hər bağ, çəmən.
Yaşıl donlu, incə belli səməni,
Gül ətirli, buğda cilli səməni,
Şux qamətin düşüb dildən-dillərə,
Bizim gözəllərlə elli səməni.

Təbiət və insan Bir-birindən ayrı təsəvvür belə, edilməyən iki canlı. Təbiət insan qayğısından, nəvazişindən ilhama gəlir, insan isə təbiətin əsrarəngizliyindən, gözəlliyindən. Bu ilhamda canlı təbiətlə yanaşı, həm də rənglərin harmoniyası yer alır. Yaşılın, sarının, qırmızının, bəyazın Budur, baharın ilk yaşılı səməni bir azdan öz rəngini çəmənlərə, düzlərə yayacaq, bu yaşılın içərisindən ağ, sarı, qırmızı çiçəklər boylanacaq, ağaclar ağlı-çəhrayılı örpəklərini atacaqlar başlarına. Beləliklə, əllərimizlə cücərtdiyimiz, yazın, ruzi-bərəkətin rəmzi səməni ömrümüzə-günümüzə növbəti baharı gətirəcək.

Cücər, yar buğdanın bağrını, Günəşə doğru boylan səməni, geyin yaşıl libasını, o incə belinə bağla qırmızı kəmərini Bayram xonçalarında şirniyyatların, rəngbərəng yumurtaların, yanar şamların fonunda nazlanəvazişlə baharı - xoş günləri səslə. Səslədiyin bu bahar xalqımıza, millətimizə əmin-amanlıq, uğur, səadət, gətirsin. Səməni, qoy sənin şux qamətin taxıl zəmilərinə də sirayət edib ellərimizə bol ruzi-bərəkət bəxş etsin. Gətirdiyin bu baharın da qədəmləri mübarək olsun!..

Mətanət Məmmədova

“Sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesi yekunlaşıb”

“Ermənistanla Azərbaycan arasında sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesi yekunlaşıb. Biz bir neçə dəfə açıqlama vermişdik ki, son iki açıq maddə qalıb. Bu yaxınlarda Ermənistan tərəfi həmin açıq maddələr üzrə Azərbaycan tərəfinin təkliflərini qəbul edib, əlaqə kanalları vasitəsilə bizə çatdırıb. Ona görə mətn üzrə işlərin yekunlaşdırıldığını qeyd edə bilərik.” AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə müsahibəsində xarici işlər naziri Ceyhun Bayramov deyib.

”Növbəti addım olaraq Azərbaycan tərəfinin gözləntisi Ermənistanın Konstitusiyasında və digər normativ-hüquqi aktlarında Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə olan iddiaların konstitusiyada dəyişiklik yolu ilə baş tutmasıdır. Təbii ki, bu, sazişin imzalanması üçün labüd şərtdir. Bundan əlavə, keçmiş münaqişənin qalıqları olan Minsk qrupu və onun digər təsisatlarının ləğv edilməsi vacib amildir”, - deyə nazir diqqətə çatdırıb.

Kuala-Lumpur meri: ”COP29-da əldə etdiyimiz nəticələrin icrası üçün bacarıqlı liderlik sistemi lazımdır”

Düşünürəm ki, Qlobal Bakı Forumu hazırda dünya miqyasında baş verənləri müzakirə etmək, nəyi necə irəli sürmək və necə irəliləmək, həmçinin gənclərin iştirakını təmin etmək üçün çox yaxşı platformadır.

Bu barədə AZƏRTAC-a müsahibəsində XII Qlobal Bakı Forumunun iştirakçısı, Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərinin meri, BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçi direktoru Maimuna Mohd Şərif deyib. ”Sabah mən qlobal böhranda şəhərlərin rolunu, iqlim dəyişikliyində şəhərlərin rolunu və ölkədə şəhərlərin rolunu müzakirə edəcəyəm. COP29-da əldə etdiyimiz nəticələrin icrası üçün bacarıqlı liderlik sistemi lazımdır”, - deyə Kuala-Lumpur meri qeyd edib.

Ötən il Qlobal Bakı Forumunun Azərbaycanın COP29-a ev sahibliyindən əvvəl keçirildiyini vurğulayan müsahibimiz deyib ki, Bakı COP29-u yüksək səviyyədə təşkil etdi. ”COP29-un açılışında məni çıxış etməyə dəvət etdiyinə görə Prezident İlham Əliyevə təşəkkür etmək istərdim. Mənə yerli xalqın səsini dünyaya çatdırmağa fürsət yaratdığı üçün ona minnətdaram. Dünyadakı bütün insanları müharibəni dayandırmağa səsləyirəm”, - deyə Maimuna Mohd Şərif əlavə edib.

Akif Çağatay Kılıc: BMT onlara müraciət edən bir çox ölkələrin problemlərini anlamır və yaxud həll etmək istəmir

“Türkiyə coğrafi mövqeyinə görə bütün münaqişələrin mərkəzinə çevrilib. Bu gün qonşuluğumuzda olan Qəzza, Ukrayna və digər münaqişə yaşanan bölgələrdə sabitlik çox dəyişkəndir. Ermənistan və Azərbaycan arasında 30 illik müharibə öz həllini tapa bilmirdi. Minlərlə insanlar bu cür münaqişələrdə həyatlarını itirdi. Bu isə münaqişə tərəflərinin bir-birinə etimad göstərməməsindən irəli gəlir.” Bu sözləri XII Qlobal Bakı Forumu çərçivəsində keçirilən ”Gələcək üçün BMT paktı: Yeni qlobal konsensusun yaradılması” adlı panel iclasında Türkiyə Respublikası Prezidentinin milli təhlükəsizlik və xarici siyasət üzrə baş müşaviri Akif Çağatay Kılıc söyləyib.

”BMT onlara müraciət edən bir çox ölkələrin problemlərini anlamır və yaxud həll etmək istəmir, Təhlükəsizlik Şurası da həmçinin.

Dünyanın müxtəlif ölkələrində insanlardan soruşsanız, bir çoxları siyasətçilərə etibar etmirlər. Nə üçün? Çünki düşünürlər ki, siyasətçilər yalnız öz problemlərini həll edir. Təhlükəsizlik Şurasında beş dövlətin yalnız öz sözünü deməsi, fikrimcə, ədalətli deyil. Biz öz məsələlərimizi indidən həll etməliyik ki, gələcək nəsillər bu tələdə qalmasınlar”, - deyə Akif Çağatay Kılıc əlavə edib.

Beynəlxalq tədbirlər vətəndaşlarımızda hansı düşüncələri yaradır?

Azərbaycan beynəlxalq arenada fəal və nüfuzlu ölkələrdən biri kimi müxtəlif beynəlxalq tədbirlərdə iştirak edərək, qlobal məsələlərin həllində mühüm rol oynayır. Ölkəmiz həm siyasi, həm iqtisadi, həm də mədəni-humanitar sahələrdə beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, mühüm zirvə görüşlərinə, forumlara və konfranslara qatılır. Eyni zamanda, Bakı Beynəlxalq Humanitar Forumu, BMT-nin Mədəniyyətlərarası Dialoq Forumu, COP29 kimi irimiqyaslı tədbirlərə ev sahibliyi etməklə Azərbaycan qlobal dialoqun inkişafına öz töhfəsini verir. Bu iştirak, Azərbaycanın beynəlxalq əlaqələrini daha da möhkəmləndirərək, həm siyasi, həm iqtisadi, həm də mədəni cəhətdən ölkənin dünya miqyasında tanınmasına və nüfuzunun artmasına xidmət edir. Bəs vətəndaşlarımızın Azərbaycanın qatıldığı və ev sahibliyi etdiyi tədbirlər haqqında düşüncələri nələrdir? SİA bu barədə vətəndaşların düşüncələrini öyrənib.

Şəhər sakini Ləman Əhmədzadə: ”Azərbaycanın beynəlxalq tədbirlərdə iştirak etməyini yaxşı qiymətləndirirəm. Çünki

Azərbaycan özü yeniliklərə açıq olan dövlətdir. Eynilə müstəqil bir dövlətdir. Bununla yanaşı Azərbaycan xalqının özüdə beynəlxalq tədbirlərdə, COP29, Formula1 yaxud Qlobal Forumda, həmçinin başqa yeni layihələrdə xarici insanlarla tanış olurlar. Eyni zamanda ölkəmizin xarici ölkələrlə əlaqələri güclənir. Beynəlxalq tədbirlərdə iştirak edənlərin əksəriyyəti demək olar ki, tələbələr yaxud gənclərdir. İnsanların dünya görüşü artır, yeni dil bilikləri əldə edirsən. Bu hal təbii ki, müsbət dəyərləndirilməlidir. Hətta 2024-ci ilin ən güclü layihələrindən biri də COP29 olmuşdur. Mən özümdə orada könüllü olmaq istəmişəm, lakin alınmayıb. Bu il isə Formula1-də könüllü olmağı düşünürəm. Bu tədbirlərdə yeniliklərə açıq olmaq lazımdır. Çünki gələcəyimiz bizim kimi gənclərin əlindədir”.

Şəhər sakini Amid Qasımov: ”Beynəlxalq tədbirlərdə Azərbaycanın iştirakını yaxşı qiymətləndirirəm. Lakin Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi etməsinin bəzi

mənfi tərəfləri vardır. Bunun ən böyük səbəblərindən biri də yollarda problemlərin olmasıdır. Bu problemlər təbii ki, qaçınılmazdır. Vaxtı ilə Azneft tərəfdə işləyən zaman dəhşətli dərəcədə yolların bağlı olmasından əziyyət çəkirdim. Müsbət cəhətlərindən biri də Azərbaycanın Avropaya açılmasıdır. Beynəlxalq tədbirlər zamanı isə turist axını həddindən artıq çox olur. Mən isə heç vaxt beynəlxalq tədbirlərdə könüllü olmamışam”.

Vokal ifaçısı Altun Süleymanov: ”Azərbaycanda belə bir böyük nüfuzlu proyektlərin ölkəmizdə keçirilməsi təqdirəlayiq bir haldır. Azərbaycan günü-gündən çiçəklənib inkişaf edir. Bu inkişafın səbəbkarı olan Müzəffər Ali Baş Komandana təşəkkürümü bildirirəm.

Çünki hər zaman Azərbaycan gənclərinə dəstək olurlar. Özüm mədəniyyət nümayəndəsi, gənc vokalist olaraq bunu qeyd etmək istəyirəm ki, bu kimi tədbirlərin Azərbaycanda keçirilməsi gənclərində inkişafına bir növ dəstəkdir. Çünki bu tip layihələrdə biz musiqiçilər də iştirak edirik, özümüzü tanıdırıq. Beynəlxalq nümayəndələrdə bilir ki, Azərbaycan incəsənəti hansı səviyyədədir. Bu kimi tədbirlərin keçirilməsi həqiqətən də təqdirəlayiqdir”.

Şəhər sakini Şamil Vəliyev: ”Azərbaycanda beynəlxalq tədbirlərin keçirilməsi əsasən turistlərin bura cəlb olunması üçün yaxşı haldır. Mən özüm bu kimi tədbirlərdə könüllü olmamaışam, yaxud iştirak etməmişəm. Azərbaycanın bir çox xarici ölkələrlə əməkdaşlığı var. Bu vəziyyəti ölkə vətəndaşı olaraq müsbət qiymətləndirirəm. Həmçinin bu kimi tədbirlərdə Azərbaycan özünü dünyaya tanıdır. Beynəlxalq tədbirlərdə xarici turistlərin ölkəyə gəlməsində iqtisadi baxımdan bir çox müsbət təsirləri vardır”.

Şəhər sakini Aygün İsmayılzadə: ”Azərbaycanın bu kimi beynəlxalq tədbirlərə ev sahibliyi etməsi çox gözəl bir haldır. Eyni

zamanda turistlərin gəlməyidə çox gözəl bir haldır ki, ölkəmiz günü-gündən tanınır. Mənim uşağımda orada iştirak edib, onu oraya işdən yollamışdılar. Həmçinin beynəlxalq tədbir olan COP29-da özüm də iştirak etmişəm, olduqca məndə xoş təəssürat yaratdı. Bu tədbirlər sayəsində insanlar daha da maarifləndirilir. COP29 tədbiri sanki havanın, təbiətin çirklənməsinin qarşısını daha da aldı. Mən bu kimi tədbirlərin keçirilməsinə çox sevinirəm. Ümumiyyətlə belə tədbirlərin olmağı ölkə üçün çox gözəl bir irəliləyişdir”.

Şəhər sakini Nübar Quliyeva: ”Bu kimi tədbirlərin keçirilməsi həm bizim ölkənin vətəndaşları üçün, həm də xarici dövlətlərlə beynəlxalq əməkdaşlıq istiqamətində yaxşı bir siyasətdir. Yəni günü-gündən inkişaf edirik, həmçinin multukulturalizm daha da inkişaf edir. Beynəlxalq tədbirlərdə turistlərin gəlməyidə çox yaxşı bir haldır. Yəni turistlərin gəlməyi nəticəsində millətimiz tanınır, daha da inkişaf edirik. Həm biz onlardan nələrsə öyrənirik, həm də onlar bizdən nələrsə

öyrənib qazanırlar. COP29-a marağımı çəkdiyi üçün getmişdim. Lakin könüllü olmaq üçün qeydiyyata vaxtında çatdıra bilməmişdim”.

Şəhər sakini Sunay Əhmədova: ”Mən beynəlxalq tədbirlərin heç birində iştirak etməmişəm. Amma sosial şəbəkələrdən bu kimi tədbirlərin yeniliklərini takib edərək çox

maraqlı olduğunu deyə bilərəm. Fərqli vətəndaşların bura gəlməyi, fərqli mədəniyyətlərlə tanış olmaq ümumiyyətlə mənə maraqlı gəlir. Həmçinin turistlərin bura gəlməyi də turizmin inkişafına səbəb olur. Bura gəlirlər, görüb bizim ölkəni təbii ki, bəyənirlər. Mən özüm isə hər hansı beynəlxalq tədbirlərdə yaxud layihələrdə iştirak etməmişəm”.

Xeyrənsə Piriyeva

Mülki aviasiyamız beynəlxalq standartlara uyğun qurulur

Dövlət başçısının Sərəncamı ilə "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Dövlət Proqramı" təsdiq edilib

Azərbaycan son illər ərzində nümayiş etdirdiyi yüksək inkişaf tempi ilə yerləşdiyi regionda lider dövlətə çevrilib. Beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verən Azərbaycan iqtisadi gücünü, qüdrətini daha da artırmaqla yeni hədəfləri reallaşdırır və ölkəmizin təşəbbüsü, eləcə də iştirakı ilə qlobal layihələr uğurla icra edilir. İnkişaf strategiyası nəticəsində Azərbaycan dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan dövlətdir. Bu inkişaf göstəriciləri ayrı-ayrı sahələrin paralel tərəqqisi fonunda özünü göstərir. Belə ki, ökəmizdə bütün sahələrdə olduğu kimi mülki aviasiya sahəsindən də sürətli inkişaf yan ötməyib. "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Müasir dovrdə mülki aviasiyada təhlükəsizliyin təmin edilməsi sahəsində beynəlxalq standartların tələblərinin, hava hərəkətinin intensivliyinin və həcminin artması fonunda insan hüquqlarının və əsas azadlıqlarının, xüsusilə hərəkət azadlığının təmin edilməsi üçün prosedurların sadələşdirilməsi, xidmətlərin əlçatan olması bu sahənin daha da təkmilləşdirilməsini zəruri edir. Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi hava gəmisinin, hava gəmisi heyətinin, sərnişinlərin, yükün, baqajın, poçt daşımalarının hərəkətinin asanlaşdırılması, gecikmələrin qarşısının alınması, hava əlaqələrinin sürətləndirilməsi məqsədilə prosedurların sadələşdirilməsini, habelə "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Dövlət Proqramı"nda bu prosedurların sadələşdirilməsi üçün həyata keçiriləcək tədbirlər kompleksini nəzərdə tutur. Sənəddə qeyd olunduğu kimi, Dövlət Proqramı mülki aviasiya sahəsində normativ hüquqi tənzimləmənin təkmilləşdirilməsini, mülki aviasiyanın təhlükəsiz inkişafı ilə bağlı prioritetlər sisteminin formalaşdırılıb həyata keçirilməsini, mülki aviasiyanın təhlükəsizliyinin, səmərəliliyinin və müntəzəmliliyinin təmin edilməsini, sərnişinlərin, yükün, baqajın, poçtun və bort ehtiyatlarının (qidalarının) daşınmasının sadələşdirilməsini, Azərbaycan Respublikasının gömrük, sərhəd, miqrasiya, səhiyyə, mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi, toxumçuluq, damazlıq heyvandarlıq, fitosanitar və baytarlıq normalarına uyğunluğunu və hava daşımaları sahəsində istifadə edilən sənədlərin və təmin edilən xidmətlərin operativ rəsmiləşdirilməsini nəzərdə tutur. Dövlət Proqramının müddəaları, yalnız bir kateqoriya üzrə uçuş əməliyyatı üçün nəzərdə tutulduğu hallar istisna olmaqla, mülki hava gəmiləri ilə həyata keçirilən bütün kateqoriyalardan olan uçuş əməliyyatlarına, Azərbaycan Respublikasında rəsmiyyətin sadələşdirilməsi üzrə müvafiq tədbirləri həyata keçirən dövlət orqanlarının (qurumlarının), o cümlədən xidmət təminatçılarının fəaliyyətinə şamil edilir.

Vurğulamaq yerinə düşər ki, mülki aviasiyamızın təməli yaxın keçmişimizlə bağlı deyil. Bir əsrdən artıq tarixi mərhələ var bu yolda. Belə tarixi olan Azərbaycan aviasiyası dünəndən bu günə qədər keçdiyi yolda mərhələ-mərhələ inkişaf edib. Azərbaycanın aviasiya tarixində uzaq məsafəyə ilk uçuş 1919-cu ildə həyata keçirilib. Azərbaycan mülki aviasiyası 1920-ci ilin aprelindən sonra SSRİ aviasiyasının tərkib hissəsi kimi fəaliyyət göstərib. Bu dövrdə Azərbaycan aviasiyası bir sıra məhdudiyyətlərlə qarşılaşsa da, müəyyən irəliləyişlərə də nail olub.

AZƏRBAYCANDA BEYNƏLXALQ HAVA LİMANI STATUSUNA MALİK MÜLKİ HAVA LİMANI

Azərbaycanın mülki hava donanmasının tarixində yeni keyfiyyətli dövr ötən əsrin yetmişinci-səksəninci illərinə təsadüf edir. Respublikanın 11 rayonunda yeni hava limanlarının tikilməsi və ya yenidən qurulması fikrimizi əsaslandırır. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə Naxçıvanda, Beyləqanda, Zaqatalada "Yak-40" reaktiv təyyarələri üçün süni örtüklü qalxma-enmə zolaqları salındı. Bakı və Gəncə hava limanları müasir naviqasiya vasitələri ilə təchiz edildi. 1971-ci ildə Gəncə Avia müəssiəsi fəaliyyətə başladı. Bütün bunlarla yanaşı, Gəncədə, Yevlaxda, Naftalanda, Naxçıvanda, Zaqatalada, Lənkəranda, Ağdamda, Ağstafada və Şəkidə süni örtüklü uçuş-enmə zolaqları ilə təchiz olunmuş hava limanları tikildi. Daha sonra 1976-1980-ci illər üçün Azərbaycanda mülki aviasiyanın yüksək inkişaf tempini nəzərdə tutan proqram hazırlandı. Ümummilli Lider Heydər Əliyev sovet dövründə milli aviasiyanın inkişafında istədiklərini tam həyata keçirə bilməsə də, müstəqillik dövründə bu sahədə olan arzularını gerçəkləşdirə bildi. Məlumdur ki, sovet hakimiyyəti dağıldıqdan sonra hərbi əmlakın və texnikanın əksər hissəsi ölkədən çıxarıldı, Azərbaycanda yerləşən silahlı qüvvələr isə birbaşa Rusiyanın tabeliyinə keçdi. Azərbaycan aviasiyası ağır vəziyyətə düşmüşdü. Bütün əlaqələr pozulmuşdu.

Belə bir zamanda Onun uzaqgörən siyasəti nəticəsində aviasiya sahəsində böyük layihələrin həyata keçirilməsinə start verildi. 1993-cü ildə dünya şöhrətli siyasətçi Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi, milli aviasiya sahəsində də kəskin dönüşə səbəb oldu. Görülən tədbirlər nəticəsində xarici aviaşirkətlərlə müqavilələr bağlandı. Aviasiya xətlərinin miqyasının sürətlə artması Azərbaycanın dünyaya çıxışını asanlaşdırdı. Ulu Öndərin rəhbərliyi ilə "1998-2003-cü illər üçün Respublika Mülki Aviasiyasının İnkişaf proqramı" hazırlanıb, uğurla həyata keçirildi. Bu proqram çərçivəsində 1999-cu il oktyabrın 2-də Bakı hava limanında dünya standartlarına tam cavab verən yeni aerovağzal kompleksi tikildi.

Bu gün Azərbaycan Respublikasında hazırda beynəlxalq hava limanı statusuna malik aşağıdakı 8 mülki hava limanı fəaliyyət göstərir ki, bunlardan Füzuli Beynəlxalq Hava Limanının açılışı 2021-ci il oktyabrın 26- da, Zəngilan Beynəlxalq Hava Limanının açılışı isə 2022-ci il oktyabrın 20- də olmuşdur (Laçın Hava Limanının tikintisi üzrə isə işlər davam etdirilir): - Heydər Əliyev Beynəlxalq Aeroportu, Naxçıvan Beynəlxalq Hava Limanı, Gəncə Beynəlxalq Hava Limanı, Lənkəran Beynəlxalq Hava Limanı, Qəbələ Beynəlxalq Hava Limanı, Zaqatala Beynəlxalq Hava Limanı, Füzuli Beynəlxalq Hava Limanı, Zəngilan Beynəlxalq Hava Limanı. Qeyd edilən hava limanlarından dünyanın 37 ölkəsinin 107 hava limanına uçuşlar təşkil edilir.

Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi ilə bağlı milli proqramların hazırlanması tələbi Beynəlxalq Mülki Aviasiya Təşkilatının beynəlxalq standartlarında öz əksini tapmışdır. Təşkilatının beynəlxalq standartlarına əsasən, üzv dövlətlər əlilliyi olan şəxslərin səyahətlər zamanı əlçatan xidmətlərdən yararlanması, hava limanının (aeroportun) imkan və xidmətlərinin həmin şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün lazımi addımlar atılması, habelə hava gəmisi qəzasının baş verdiyi dövlət və onunla həmsərhəd dövlətlər tərəfindən aviasiya hadisəsi qurbanlarının ailə üzvlərinin müvəqqəti olaraq öz ərazilərinə daxil olmasını asanlaşdırmaq məqsədilə tədbirlər görülməsini, sərnişin məlumat bazasının yaradılmasını təmin etmək öhdəliyini öz üzərlərinə götürürlər. Mövcud vəziyyətin təhlili Hava daşımalarının sadələşdirilməsi sərhəd nəzarəti ilə bağlı proseslərin səmərəli idarə edilməsində və beynəlxalq hava daşımalarının sürətləndirilməsində mühüm rol oynayır. Beynəlxalq Mülki Aviasiya Təşkilatı Şurası 2024-cü ili "Rəsmiyyətin sadələşdirilməsi ili" elan etmişdir. Beynəlxalq Mülki Aviasiya Təşkilatı bununla bağlı miqrasiya, karantin, gömrüklə bağlı qanunvericiliyin həyata keçirilməsində hava gəmilərinin, hava gəmisi heyətinin, sərnişinlərin, eləcə də yükün əsassız gecikmələrinin 3 qarşısının alınması məqsədilə müvafiq tədbirlər görülməsi üçün dövlətlərlə qarşılıqlı əməkdaşlıq edir

Hava daşımalarının əsas hədəflərindən biri olan beynəlxalq daşımalarda sərhəd, miqrasiya və gömrük prosedurlarının səmərəli və təhlükəsiz şəkildə yerinə yetirilməsi daha çox səyahət sənədlərinin sürətli və effektiv qiymətləndirilməsindən asılıdır. Bu prosesdə sərnişinlərin və ya hava gəmisi heyətinin hərəkətinin idarə edilməsi ilə məşğul olan şəxslər sənədləri yoxlamalı, onların həqiqiliyinə əmin olmalı, sahibini təsdiq etməli və qaydalara operativ və effektiv şəkildə riayət etməlidirlər. Bu prosesdə hər hansı gecikmə səmərəliliyə mənfi təsir göstərə bilər və aviasiyanın iqtisadi baxımdan effektivliyini və dayanıqlılığını azalda bilər. Müasir dövrdə həmin prosesin sadələşdirilməsində elektron və rəqəmsal sənədlər vacib rol oynayır. Belə ki, səyahət sənədləri kontaktsız qurğu vasitəsilə dəqiq və operativ oxuna bilər. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi ilə yanaşı, hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair hazırlanacaq qaydalar bu prosesə cəlb olunan dövlət orqanlarının (qurumlarının) vəzifələrini dəqiq müəyyən etməklə Beynəlxalq Mülki Aviasiya Təşkilatının standartlarının effektiv icrası, səmərəli koordinasiyanın təşkili Azərbaycan Respublikasının bu sahədə üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsinə imkan verəcəkdir.

DÖVLƏT PROQRAMININ PRİORİTET İSTİQAMƏTLƏRİ

Dövlət Proqramının prioritet istiqamətləri sirasında hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsində nəzarət və icra prosedurlarının beynəlxalq standartlara və tövsiyə olunan təcrübəyə uyğunlaşdırılması, hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi sahəsinin qanunvericilikdə yeni olmasını nəzərə alaraq, müvafiq beynəlxalq standartların və tövsiyə olunan təcrübənin öyrənilməsi, habelə nəzarət və icra prosedurlarının uyğunlaşdırılması prosesinin aparılmasının zəruriliyi nəzərdə tutulur. Rəsmiyyətin sadələşdirilməsi sahəsində dünya təcrübəsinin araşdırılması, beynəlxalq təcrübə, habelə ölkə üzrə mövcud vəziyyətin monitorinqi və təhlili əsasında hava limanlarında (aeroportlarda) hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair proqramın tərtib edilməsi kmki tədbirlər reallaşacaq.

Dövlət Proqramında qeyd olunduğu kimi, aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsində, habelə qeydiyyat məlumatlar sisteminin beynəlxalq standartlar əsasında qurulmasında texniki çətinliklər yarana bilər. Çətinliklərin aradan qaldırılması məqsədilə dövlət orqanları (qurumları) arasında məlumatlar sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində qarşılıqlı fəaliyyətin daha çevik təmin edilməsi məqsədilə və məlumatlar sisteminin bir çox sahələri əhatə etdiyini nəzərə alaraq, təhlillər aparılması və həmin təhlillər əsasında razılaşdırılmış normaların müəyyən edilməsi məqsədəuyğun hesab olunur. Bununla əlaqədar müvafiq işçi qruplar yaradıla bilər.

Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi, əməliyyatların səmərəliliyinin artırılması, ticarətin və turizmin inkişafına töhfə verməklə iqtisadi inkişafın və məşğulluğun artırılması, dövlət sərhədlərinin təhlükəsizliyinin gücləndirilməsi, keyfiyyətli aviasiya xidmətlərinə əlçatanlığı təmin etməklə sərnişinlərin səyahət təcrübəsinin yaxşılaşdırılması və s. Dövlət Proqramının məqsədlərindəndir.

Ölkə başçısının son illərdə mülki aviasiya sahəsinə göstərdiyi daimi diqqət və qayğısının nəticəsi olaraq bir çox nailiyyətlərə imza atılıb. Ölkə Prezidenti Cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində mülki aviasiyamız 2003-cü ildən etibarən inkişafının keyfiyyət və miqyası etibarilə yeni bir mərhələsinə qədəm qoyub.

Milli aviasiyanın inkişafı, infrastrukturunun təkmilləşdirilməsi və aviaparkın yeniləşməsində Prezident İlham Əliyevin qayğı və diqqəti də olduqca böyük əhəmiyyətə malikdir. Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, aviasiya sahəsində kompleks tədbirlər həyata keçirilir. Paytaxt və regionlarda olan hava limanlarının maddi-texniki bazası möhkəmləndirilib, müasir xidmət infrastrukturu yaradılıb. Mülki aviasiya sahəsindəki uğurlar bizə deməyə əsas verir ki, ölkəmizin coğrafi cəhətdən olduqca əlverişli mövqedə yerləşməsi ölkəmizin dünyanın hava nəqliyyatı sistemindəki rolunu daha da artırır. Ölkəmizin hava nəqliyyatının modernləşdirilməsinə xüsusi diqqət göstərən Cənab İlham Əliyevin tapşırıq və göstərişlərinin yüksək səviyyədə icra olunması Azərbaycanın aviasiya sahəsinin tamamilə yeni mərhələyə çıxarılmasına şərait yaradıb.

Nəzakət ƏLƏDDİNQIZI

Amerika kimi aldadır?

Vaşinqtonun "atəşkəs" çağırışına Rusiya necə cavab verəcək?

Səudiyyə Ərəbistanının Ciddə şəhərində Ukrayna ilə ABŞ arasında aparılan danışıqlarda gözlənildiyi kimi Amerikanın hərbi yardımı və ən əsası kəşfiyyat məlumatlarının ötürülməsi naminə (onlarsız Qərbin uzaqmənzilli raketləri uçmur) Kiyev hər şeylə razılaşdı. İlk növbədə, "sülh danışıqlarına hazır olduğunu" nümayiş etdirdi. Həm də mineral ehtiyatlarını Vaşinqtona satmaq müqabilində, Ukraynanın bir aylıq barışıq ideyası dəstəkləndi. İndi həm Amerikada, həm də Ukraynada deyildiyi kimi, top Rusiyanın meydançasındadır. Hansı ki, bütün bu "sülh təklifləri" qane edə bilməz.

ABŞ dövlət katibi Marko Rubio bildirib ki, Donald Tramp "bu müharibənin dünən bitməsini istəyir" və Rusiyanın atəşkəsi "mümkün qədər tez" qəbul edəcəyinə ümid edir. Rubio əlavə edib ki, ABŞ-Ukrayna mineral sazişi mövzusu "bugünkü danışıqların mövzusu deyil". Rusiya münaqişəni dayandırmağa və ya davam etdirməyə hazır olduğunu nümayiş etdirməlidir. "Həqiqətin vaxtı gəldi", deyə nöqtəni qoyub.

Qərb və onun peykləri bu arqumentlərlə ən həyasız yalanları örtbasdır edərək həqiqətdən danışmağı necə də sevirlər! Aydındır ki, Ciddə danışıqlarının nəticələri dalana səbəb olub. Rusiya prezident Vladimir Putin vasitəsilə dəfələrlə bəyan edib ki, hərbi əməliyyatların dayandırılması yoxdur - yalnız münaqişəyə tam olaraq son qoyulması danışıqların predmeti olacaq. Üstəlik, rus şərtləri ilə: Novorossiya-nın Rusiyaya daxil olmasının tanınması, Ukraynanın NATO-ya qəbulundan imtinaya zəmanət verilməsi, Ukrayna ordusunun ixtisarı və s.

Hər şey yenə İstanbulda deyildiyi kimidir. Böyük Britaniyanın baş naziri Conson Kiyevə danışıqları pozmağı əmr etməsəydi, Ukrayna uçurumun astanasında qalmazdı. Təəssüf ki, bu gün də Trampın başlatdığı prosesin də pozulma şansı var. "Ciddə" müqavilələrinin də İstanbul razılaşmaları kimi aqibətlə üzləşə biləcəyinə İngiltərənin prosesdə fəal iştirakı eyham vurur. Və bunu heç gizlətmir! "Böyük Britaniyanın baş naziri Keir Starmer Ciddədə əldə olunan razılaşmanı "gözəl nailiyyət" adlandırıb və bildirib ki, "təşəbbüs hazırda Rusiya tərəfindədir. İndi Rusiya atəşkəs və atəşkəsə razı olmalıdır".

"Bloomberg" vurğulayır ki, anonimlikdə israr edən Britaniya rəsmisinin sözlərinə görə, ABŞ və Ukraynanın razılığa gəlməsinə kömək etmək üçün İngiltərənin başçılıq etdiyi intensiv diplomatik səylər pərdə arxasında aparılıb. Bu, Kreml üçün sürprizdirmi? Bu mümkün deyil!

Rusiya Qərbin "həqiqətinə" inanmağın nə qədər mənasız olduğunu çoxdan bilir. Vaşinqtonun və xüsusən də Kiyevin bəyanatlarına inanmaq (və otuz günlük barışıq ideyası onlara məxsusdur!) müharibədə əlfə olunan üstünlükləri riskə atmaq deməkdir. Ən əsası isə gələcəklərini Rusiya ilə bağlayan dörd yeni rayonun sakinlərinin taleyini riskə atır. Bu, açıq şəkildə Kreml üçün qəbuledilməzdir.

Görünür, Kiyevin ümid etdiyi şey bu idi. Vaşinqtonla əldə olunan razılaşmalar fonunda Zelenskinin Oval kabinetdəki nümayişkaranə kobudluğu daha çox dəqiq hesablamaya bənzəyir. "Mədən" sövdələşməsinin Amerika üçün nə qədər vacib olduğunu anlayaraq, öz mövqeyində mümkün olan yeganə addımı atdı və onun təxirə salınmasına nail oldu. Ağ Ev Ukraynanın mineral sərvətləri ilə o qədər maraqlıdır ki, ondan imtina etməyi ağlının ucundan da keçirmir. Və pərdə altında Kiyev Trampın nümayəndələrinin onun "atəşkəs" şərtləri ilə razılaşması üçün danışıqlar aparıb.

Trampın komandası 30 günlük atəşkəs planının baxılmaq üçün Moskvaya təqdim ediləcəyini söyləyib, deyə yazan Amerikanın "Politico" nəşri qeyd edib ki, "top artıq Rusiyanın meydanındadır", deyən Rubio, Rusiyanın indiyə qədər Trampın mövqeyini səmimiyyətlə alqışladığını və atəşkəsin ev sahibi olan Kremlə qarşı heç bir ön öhdəliyi olmadığını söyləyib. Formal olaraq hər şey belədir. Reallıqda isə vəziyyət fərqlidir. Bəli, Ukrayna "su və hava" atəşkəsi, yəni Rusiyanın əsas müdafiə qovşaqlarına, qərar qəbul etmə nöqtələrinə və hərbi-sənaye kompleksinin infrastrukturuna kütləvi zərbələr endirməsində israr edə bilmədi. İndi, əgər atəşkəs ideyası Moskva tərəfindən dəstəklənərsə, Kiyev quruda da, o cümlədən Kursk vilayətində də döyüşləri dayandırmalı olacaq.

ANALİTİK

MƏTLƏB
Metlebsalahov@mail.ru

Tramp Zelenskini "yola salır"...

Ukrayna ətrafındakı gərginlik artıq təkcə hərbi toqquşmalarda deyil, həm də diplomatik və siyasi cəbhədə də şiddətlənməkdədir. Ağ Evdə Donald Trampla kəllə-kəlləyə gələn Ukraynanın hazırkı Prezidenti Volodimir Zelenski üçün yolun sonu da görünməyə başlayıb. Artıq V.Zelenski qarışıq bütün Avropa liderləri D.Tramp qarşısında "ağ bayraq" qaldırıblar. Üstəlik Kiyevdə yeni seçkilər barədə görüşlər keçirilir, Ukrayna siyasətində canlanma başlayıb. Nəyin bahasına olursa-olsun Ukrayna müharibəsini bitirib sülh elan etməyi hədəfləyən D.Tramp, Kiyevdəki hakimiyyətə qapını göstərməyi də tezləşdirməyə çalışır. İlk hədəf heç şübhəsiz ki, yeni ABŞ liderinə qarşı baş qaldıran keçmiş şoumen - aktyorun iqtidarına son qoymaqdır.

Budur, Ciddədə aparılan danışıqlardan sonra Ukrayna Rusiya ilə atəşkəsə razılıq bəyanatı verib və üstəlik, ABŞ da Ukraynaya hərbi yardımı bərpa edəcəyini bəyan edib. Bir başqa tərəfdən görünən odur ki, D.Trampa qarşı əks mövqedə dayanan Avropa Birliyi də yeni Ağ Ev sahibinin diktəsini qəbul edib Əslində Ağ Evdə V.Zelenski ilə bütün dünyanın gözü qarşısında aparılan gərgin söz müharibəsi və gərginlik həm də hazırkı Ukrayna rəhbərinin "qələminin qırılması" üçün start da sayılmalıdır. Bütün dünyaya, hətta siyasətlə yaxından-uzaqdan əlaqəsi olmayan dağdakı çobana da bəlli oldu ki, yeni ABŞ rəhbərinin Ukrayna barədə öz planları var və bu planlarda V.Zelenski qəti yer almır. Çünki prezidentiliyinin ilk günündən başlayaraq Bütün dünyanın gözünün qarşısında, təraddüd belə etmədən Ağ Ev sahibi açıq mətnlə prezident Volodimir Zelenskini qeyri-legitim dövlət başçısı elan edib. Eyni zamanda, prezident Donald Tramp Ukrayna liderini kollektiv Qərbin maliyyə dəstəyini şübhəli məqsədlərə yönəltməkdə, hətta korrupsiyada suçlayır. Digər tərəfdən, Ağ Ev sahibi Rusiyanın Ukraynanı cəmisi bir neçə gün ərzində darmadağın edə biləcəyini, ancaq Kremlin bunu etmək istəmədiyini də vurğulayıb.

Son baş verənlərdən sonra isə üzünü Avropa ittifaqına çevirən Ukrayna lideri D.Trampın daha çox qəzəbinə tuş gəlib. Budur, Ağ Ev Adminsitrasiyası Kiyevdə yeni siyasi proseslər üçün düyməni basıb.

"Politico" nəşri yazır ki, ABŞ prezidenti D. Trampın yaxın çevrəsindən olan dörd yüksəkvəzifəli şəxs Ukrayna müxalifəti ilə prezident seçkiləri ilə bağlı gizli danışıqlar aparıb. Bu barədə "Politico" adlarının çəkilməsini istəməyən üç ukraynalı deputat və Respublikaçılar Partiyasının xarici siyasət üzrə ekspertinə istinadla xəbər verir. Nəşrin məlumatına görə, Ukraynanın keçmiş baş naziri Yuliya Timoşenko ilə Ukraynanın keçmiş prezidenti Petro Poroşenkonun tərəfdaşları ilə söhbətlər aparıblar.

Nəşrin iddiasında vurğulanır ki, danışıqların əsas mövzusu Ukraynada atəşkəs razılaşmasından sonra prezident seçkilərinin keçirilməsidir. Görünən odur ki, ABŞ Administrasiyası müharibə bitən kimi Ukraynadakı yeni siyasi xəritə barədə planlarını işə salacaqlar.

Maraqlısı odur ki, P.Poroşenko və Y.Timoşenko "Politico"nun xəbərinə reaksiya veriblər. Hər iki müxalif deputat amerikalı tərəfdaşları ilə danışıqlar apardıqlarını, lakin onlarla seçkiləri müzakirə etmədiklərini bildiriblər. P.Poroşenkonun sözlərinə görə, o, sülh bağlanmadan seçkilərin keçirilməsinə qarşıdır. Əslində, hər iki müxalifət lideri ABŞ-ın təşəbbüsünə müsbət yanaşır və Ukraynada müharibənin başa çatdırılmasını gözləyirlər ki, siyasi səhnədə əl-qol atsınlar.

Bundan başqa, hazırda Ukrayna savaşının gələcək taleyi ilə bağlı ABŞ-Avropa Birliyi siyasi qarşıdurması yaşanır. Düzdür, Avropa liderləri bir neçə gün öncə Ukrayna barədə atəşkəs təklifini və D.Trampın sülh təşəbbüslərini dəstəklədiklərini bəyan ediblər. Amma müəyyən nüanslar da qalmaqdadır.

Məsələ ondadır ki, Tramp adminstrasiyası Ukrayna savaşının dayandırılmasına yalnız Rusiya ilə anlaşaraq, nail olmağa çalışır. Üstəlik, bu prosesə həm taleyi həll edilməkdə olan Ukrayna, həm də ABŞ-ın Rusiyaya vəd etdiyi güzəştlər ucbatından böyük risk altına düşə biləcək Avropa Birliyi buraxılmır. Yəni, Tramp adminstrasiyası bütün prosesi yalnız Rusiya ilə yürüdür. Və müşahidələr onu göstərir ki, səhnə arxası sövdələşmə birmənalı şəkildə yalnız ABŞ-Rusiya cütlüyünün maraqları üzərində qurulmaqdadır. Artıq Ukrayna məsələsi ilə yanaşı dünya siyasətinin özü də yenidən dizayn olunur. Kimin harda yer alacağına isə belə görünür ki, Ağ Ev və müəyyən qədər də Kremldə qərar veriləcək...

Atəşkəs zamanı ehtiyatların köçürülməsi və ya Ukrayna qoşunlarının qalıqlarını təhdid edən ”qazanlardan” çıxarmağın mümkün olub-olmadığı sualı cavabsız qalır. Əgər belədirsə, bu, atəşkəsi tamamilə mənasız edir. Düzdür, bundan daha pis vəziyyətdə olan Rusiya olmayacaq. Kiyevə ilk növbədə bir aylıq möhlət lazımdır. Moskva onsuz da ehtiyatların və döyüş hissələrinin hərəkətində heç bir məhdudiyyət olmadığı müddətcə, insanlar, texnika və resurslarda böyük üstünlüyü ilə qarşı tərtəfdən daha yaxşı hazırlaşa biləcək. ”Rusiya ABŞ-ın atəşkəs təklifini rədd edərsə və ya ona məhəl qoymasa, bundan sonra nə edəcəyinə qərar vermək üçün top Trampın məhkəməsində olacaq”, - deyə Britaniyanın ”The Spectator” nəşri yazır: ”O, ya Rusiyaya qarşı əlavə sanksiyalar tətbiq etmək təhdidini yerinə yetirə, ya da Ukraynadan imtina edə bilər. Hər halda, bunu öyrənmək üçün çox gözləmək lazım gələcək”.

Sanksiyalar Trampı qorxutmayacaq. Rusiyanın sağ qala bilməyəcəyi yeni bir şey tapmaq çətindir. Amerikanın hərbi yardımının bərpası da döyüş meydanındakı vəziyyəti çox dəyişməyəcək: geri çəkilən Ukrayna Silahlı Qüvvələri geri çəkilməyə davam edəcək. Trampa Ukrayna münaqişəsinə birbaşa müdaxilədən qaçmağa zəmanət verilir. ”Sülhməramlılarını” Ukraynaya göndərməyə hazır olan Avropa isə hələ də qeyri-müəyyən mövqedə qalmaqdadır. Ancaq problem buradadır ki, Aİ bu məsələdə vahid qərar qəbul edə bilməyib və edə bilməyəcək. Fransa, İngiltərə və Almaniyadan özəl həll planları var. Lakin bu ölkələrin heç birinin kifayət qədər təlim keçmiş əsgəri və ya hələ də qalan texnika üçün lazımi sursat ehtiyatı yoxdur. Fransızlar, almanlar və ingilislər hələ də sülhməramlılar kimi fəaliyyət göstərmək üçün kifayət qədər yaxşıdırlar, amma döyüşə gəlincə...

”Birləşmiş Ştatlar Rusiya və Ukrayna ilə ayrı-ayrılıqda danışıqlar aparır. Rusiyanın qeyd-şərtsiz atəşkəsə razı olacağına dair heç bir açıqlama verilməyib”, - ”The New York Times” yazır: ”Rusiya prezidenti Vladimir Putin isə döyüşlərin hər hansı bir şəkildə dayandırılmasına razılıq verməzdən əvvəl Ukraynanın NATO-ya qəbul edilməməsi tələbinə işarə edib”. Bu, ən real ssenaridir. Kreml artıq Amerika tərəfi ilə yaxın gələcəkdə planlaşdırılan təmasları təsdiqləyib. Rəsmilərimizin ifadələrindəki ehtiyatlılıq Moskvanın qızğın debata hazırlaşdığını bir daha təsdiqləyir. Yəni öz sərt şərtlərini irəli sürmək. Dəqiq nədir, göz qabağındadır: ərazi və xüsusi hərbi əməliyyatın məqsədlərinə tam nail olmaq.

Rusiya-Amerika məsləhətləşmələri başa çatdıqdan sonra Vaşinqtonun həqiqətən kimi, Moskvanı, Kiyevi, yoxsa hamını bir anda aldatmaq istədiyi aydınlaşacaq. Təəssüf ki, onun nə istədiyinə şübhə yoxdur. Düzdür, belə çıxa bilər ki, Amerika özünü aldadacaq...

Xarici media Rusiya-Ukrayna münaqişəsinin həlli barədə

Avropa və Amerika mətbuatı ABŞ və Ukrayna arasında müvəqqəti atəşkəs haqqında ilkin razılaşmaları alqışlayır. Bir çox müşahidəçi Rusiyanın reaksiyasının necə olacağı ilə maraqlanır.

CNN (Atlanta, ABŞ)

Trampın Ukraynada sülh arzusu Rusiya reallığı ilə üst-üstə düşür

Təbii ki, 30 günlük atəşkəslə bağlı xəbərlər ancaq xoş xəbərdir. Lakin artıq on ilə yaxın yaşı olan münaqişəni nəzərə alsaq, atəşkəs çox çətin məqsəddir. Ola bilsin ki, yüz minlərlə ukraynalı və rus artıq ölüb, atəşkəs konsepsiyasını qəbul etmək hər iki tərəf üçün çətin olacaq. Moskva sülhün əldə olunmasına maneə olmadığını göstərməli olacaq. Bu, üç illik qəddar təcavüzdən və müharibəni bitirmək üçün az ictimai istəkdən sonra Kreml üçün qeyri-adi mövqe olacaq. Trampın tərəfdaş olması illüziyasını saxlamaq üçün Rusiya prezidenti hansısa sülhsevər dili qəbul etməli olacaq.

Bloomberg (Nyu-York, ABŞ)

Ukrayna-Amerika razılaşması Putinin üzərinə öhdəliklər qoyur

Donald Trampın Oval kabinetdə Vladimir Zelenskini partlatmasından iki həftə keçməmiş, Amerika prezidenti indi Rusiyaya təzyiq edir ki, Zelenskinin müşavirləri ilə əldə edilən atəşkəs razılaşmasını qəbul etsin. Bu razılaşma indi Vladimir Putindən asılıdır, ola bilsin ki, ona əməl etməyə həvəsi az olsun.

Der Spiegel (Hamburq, Almaniya)

İndi Rusiyadan asılıdır

Bu, çox şey vəd edən, lakin daha çox sualı açıq qoyan nəticədir. Ən vacib sual budur: ruslar necə cavab verəcək? Vladimir Putin istər hərbi, istərsə də birtərəfli sülh müqaviləsi ilə öz məqsədlərinə çatana qədər Ukraynaya təzyiqi azaltmaqda maraqlı deyil. O, təklifdən imtina edəcəkmi? O, vaxta qədər dayanacaqmı? Yoxsa o, taktiki cəhətdən razılaşacaq, amma reallıqda bunun qarşısını alacaq?.. Üç ildən sonra Ukrayna cəmiyyəti bu qeyri-müəyyən sövdələşmənin şərtləri ilə müharibəni bitirməyə ümid edə biləcəyi ilə maraqlanacaq.

The Independent (London, Böyük Britaniya)

ABŞ sülh danışıqları müqabilində Ukraynaya silah təklif edir

Bu razılaşma Rusiyanın qoşunlarına möhlət verir, Ukraynanın döyüş ruhunu sarsıdır və Rusiya tərəfindən Kiyevlə Vaşinqton arasında münasibətləri daha da parçalamaq üçün istifadə oluna bilər. Tramp administrasiyası Kiyevdəki keçmiş müttəfiqləri ilə hərbi dəstəyi və kəşfiyyat məlumatlarını paylaşmağı dayandırdıqdan sonra ABŞ Ukrayna ilə bağlı razılaşmanı məcbur etdi. Nə Ukrayna xalqı arasında, nə də onun hakimiyyət dəhlizlərində Rusiya ilə danışıqlarda dürüst bir vasitəçi kimi ABŞ-a inam yoxdur. Tramp administrasiyası Ağ Evə daxil olduqdan sonra atdığı hər addım Ukraynanın hərbi səylərini zəiflətməyə yönəlib.

Le Figaro (Paris, Fransa)

Rusiya hələ də hərbi planına sadiq qalır və Ukraynaya təzyiq göstərir

Əgər Kiyev rejimi Vladimir Putinə bir növ mesaj göndərmək istəyirdisə, bunun üçün yanlış məqam seçib. Bazar ertəsindən çərşənbə axşamına keçən gecə, ABŞ və Ukrayna rəsmiləri arasında Səudiyyə Ərəbistanında danışıqların birinci raundunun başlamasına bir neçə saat qalmış pilotsuz təyyarələr buludları Moskva və Rusiyanın digər bölgələri üzərində uçub. Müşahidəçilərin fikrincə, bu yolla çox incə mövqedə olan Vladimir Zelenski Moskvanı qismən atəşkəslə razılaşmağa məcbur etmək istəyib...

Le Soir (Brüssel, Belçika)

Vaşinqton və Kiyev müvəqqəti atəşkəsə ümid verir

Bir neçə günlük həddindən artıq gərginlikdən sonra bəyanatların tonu qəfil dəyişdi. Səudiyyə Ərəbistanı Ukraynada atəşkəs üçün ilk mühüm addımı atdı... Amma iş hələ bitməyib - indi hərəkət etmək növbəsi Rusiyanındır.

V.VƏLİYEV

Yeni uğurlara və qələbələrə doğru

Bu gün birmənalı şəkildə qeyd etmək olar ki, Azərbaycan özünün ən qürurverici, şərəfli dövrünü yaşayır. İnsanlarımız xoşbəxt və sevinclidir. Ona görə ki, son iki yüz illik tariximizdə ilk dəfə olaraq itirdiklərimizlə barışmadıq və Ali Baş Komandan, Prezident İlham Əliyevin komandanlığı ilə 30 il işğal altında olmuş torpaqlarımız azadlığına qovuşdu. Artıq keçmiş qaçqın və köçkünlər yenidən qurulan, inşa olunan doğma yurd-yuvalarına qayıdırlar. Qarabağımızda çal çağırdı, bayram bayrama qarışıb, hər kəs sevinir, şadyanalıq edir. Təbii ki, mövcud gerçəklikləri qeyd etdiyimiz kimi, tarixi faciələri də unutmaq olmaz. Unutqanlıq bir millətin faciəsi, yeni fəlakətlərlə üzləşməsi olar. Yaddan çıxarmaq olmaz ki, ötən əsrin 90-cı illərində Azərbaycanda vəziyyət son dərəcə ağır idi. Vətəndaş mühiribəsi qaçılmaz görünürdü. Xaos və anarxiyadan hiyləgərliklə yaralanan terrorçu Ermənistan dövləti ölkəmizin kənd və qəsəbələrini, rayonlarını işğal edirdi. Bu faciəli dövrdə minlərlə insan həyatını itirdi, yaralandı, əlil oldu, şəhər və kəndlərimiz erməni-rus hərbi birləşmələri tərəfindən dağıdıldı. Digər faciəvi hal isə ondan ibarət idi ki, Azərbaycan Silahlı Qüvvələri torpaqlarımızın deyil, ayrı-ayrı qüvvələrin maraqlarının müdafiəsinə xidmət edirdi. Belə bir çətin məqamda xalqın böyük əksəriyyətinin istəyinin ifadəsi kimi 91 nəfər ziyalının Ulu Öndər Heydər Əliyevə "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciəti ölkəmizin bugünkü inkişafı üçün möhkəm təməl oldu. Müraciətdə qeyd olunmuşdur ki, indiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz öhdəsinə götürməyə qadir yeganə şəxs Sizsiniz: "Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübəsinə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə eləyəcək çox güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz". Ulu Öndər Heydər Əliyevin "91-lər"in müraciətinə "Yeni, müstəqil Azərbaycan uğrunda" cavabı itirilən ümidlərin bərpa olunacağına inam yaratdı. "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması "obyektiv zəruriyyətdən doğur" söyləyən Ulu Öndər Heydər Əliyev belə bir əminliyi də ifadə etmişdir ki, belə partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində tarixi rol oynaya bilər. 1992-ci il noyabrın 21-də təsis konfransını 550 nümayəndənin iştirakı ilə keçirən Yeni Azərbaycan Partiyasının sıralarında hazırda 850 minə yaxın üzv birləşib. Partiyanın hər bir üzvü Dahi Öndər Heydər Əliyev ideyalarının, onun siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin təbliğatçısıdır. Ulu Öndər Heydər Əliyevin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" tezisi bütün dövrlərdə partiyanın yoluna işıq salır, onun hədəflərini açıqlayır.

Azərbaycanın dünəni və bu günü kimi sabahı da Ulu Öndərin adı ilə bağlı olacaq

Azərbaycan Prezidenti, Fateh Sərkərdə İlham Əliyevin YAP-ın altenativsiz partiya olduğunu bildirmişdir: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir" fikirləri Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yolun aydın mənzərəsini yaradır. Azərbaycanın hər uğurunda öz payı olan Yeni Azərbaycan Partiyasının ölkədə keçirilən bütün seçki proseslərindən uğurla çıxması da möhkəm təmələ əsaslanan siyasətə, xalq-iqtidar birliyinin möhkəmliyinə əsaslanır. Tarixə qısa nəzər salsaq, Yeni Azərbaycan Partiyasının 1998, 2003, 2008, 2013 və 2018-ci il prezident, 1995, 2000, 2005, 2010, 2015-ci il parlament, 1999, 2004, 2009, 2014-cu il bələdiyyə seçkilərində uğur qazanmasını şərtləndirən də məhz bu amillərdir. Bununla yanaşı, partiyanın Konstitusiyamıza əlavə və dəyişikliklərin edilməsi məqsədilə bu günədək üç dəfə ümumxalq səsverməsinin keçirilməsi ilə bağlı irəli sürdüyü təşəbbüslər də xalqımız tərəfindən dəstəklənmişdir. "Ona görə iqtidar partiyasıyıq ki, bizim siyasətimiz xalq siyasətidir. Deyə bilərəm ki, biz ümumxalq partiyasıyıq. Çünki Azərbaycanın qarşısında duran bütün məsələlərdə biz fəal iştirak edirik. Biz öz əməyimizlə bu siyasəti aparırıq" söyləyən möhtərəm Prezidentimiz İlham Əliyev bildirir ki, əməlimiz, işlərimiz, verilən sözlərə sadiqliyimiz Yeni Azərbaycan Partiyasının nüfuzunu artırır, Azərbaycanın siyasi səhnəsində yeganə ciddi siyasi qüvvəyə çevirir.Yaranandan cəmi 6 ay sonra iqtidar partiyasına çevrilən YAP dövlətə, xalqa xidmət missiyasını Azərbaycanın davamlı inkişafına, əhalinin sosial müdafiəsinin daha da yaxşılaşdırılmasına verdiyi töhfələri ilə nümayiş etdirir.

1993-cü ildə Dahi Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın dövlətçiliyinin xilası, xalqın sabaha olan ümidsizliyinin aradan qaldırılmasına təkan oldu. Dahi Öndərimiz Heydər Əliyev qısa zamanda ölkədə siyasi, ictimai sabitliyə nail oldu, sosial-iqtisadi sahədə həyata keçirdiyi fundamental işləri nəticəsində xalqın rifah halı tədricən yaxşılaşmağa başladı, ordu quruculuğunda, sənayedə, kənd təsərrüfatında, elmdə, mədəniyyətdə və digər sahələrdə xalqın itək və arzularına müvafiq olaraq islahatlar aparıldı və bu islahatlar öz müsbət nəticələrini verdi. 1994-cü il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişi imzalandı. "Əsrin müqaviləsi" yeni neft strategiyası Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. Əfsanə kimi görünən BTC və BTƏ neft-qaz layihələrinin uğurlu icrası nəticəsində Azərbaycan regionun aparıcı qüvvəsinə, dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrildi. Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə yaratdığı Dövlət Neft Fondunun vəsaitləri hesabına bu gün işğaldan azad edilən ərazilərimizdə, eləcə ölkəmizin bir sıra bölgələrində əhəmiyyətli sosial-iqtisadi layihələr həyata keçirilir ki, onlar da ümumilikdə ölkənin hərtərəfli inkişafını təmin edir. Ölkəmizdə azad mətbuatın inkişafı, çoxpartiyalı sistemin yaradılması, seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirilməsi istiqamətində mühüm addımlar atıldı. Azad və demokratik bələdiyyə, parlament, prezident seçkiləri keçildi. Bu seçkiləri nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri, ayrı-ayrı ölkələrin parlamentinin təmsilçiləri yaxından izləyərək, seçkilərin əksər ölkələr üçün nümunə olduğunu bəyan etdilər. Məhz bu baxımdan birmənalı şəkil qeyd etmək olar ki, Azərbaycanda azad, demokratik seçki ənənəsi Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulub

Qarabağın işğaldan azad edilməsinin başlanğıc nöqtəsi 2003-cü il 15 oktyabr prezident seçkilərində qoyuldu

Tam qətiyyətlə və əminliklə qeyd etmək olar ki, Ulu Öndərimiz Heydər Əliyevin xalq və dövlətimiz qarşısında ən böyük xidmətlərindən biri Azərbaycanı məhv olmaqdan xilas edərək güclü və qüdrətli dövlətə çevirməsidirsə, digəri Cənab İlham Əliyev kimi uzaqgörən, müdrik, dahi siyasətçi yetişdirməsidir. Cənab İlham Əliyev Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu, lakin yarımçıq qalan işlərini uğurla başa çatdırması ilə fenomen lider, qalib bir dövlətin Müzəffər Prezidentidir. 1 oktyabr 2003-cü ildə prezident seçkiləri ərəfsində Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqa müraciətində demişdir: "Üzümü Sizə- həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ötən 21 il ərzində Prezident İlham Əliyev tərəfindən böyük layihələr, fundamental işlər həyata keçirib. Birmənalı şəkil də demək olar ki, Prezident İlham Əliyev 2003-cü il prezident seçkiləri ərəfəsi xalqa verdiyi bütün vədləri yerinə yetirib. Azərbaycan Prezidenti İlham Əliyevin son 21 ildə həyata keçirdiyi təkmil islahatlar Azərbaycanın davamlı inkişafını təmin edir. Neft siyasətinin məntiqi davamı olaraq iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımların uğurlu nəticəsidir ki, bu gün ümumi daxili məhsulda özəl bölmənin payı 85 faiz təşkil edir. Cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən iqtisadi artımın qeyri-neft sektorunun hesabına olmasını qarşıya mühüm vəzifə kimi qoydu, "neft kapitalını insan kapitalına çevirək" tezisini irəli sürdü. Bu günümüzün reallıqları bu məqsədin artıq gerçəklik olduğunu təsdiqləyir. Təbii ki, enerji sektorunda da uğurlarımız davamlıdır. Cənub Qaz Dəhlizinin rəsmi açılışı, onun əsas seqmentlərindən olan TANAP-ın istifadəyə verilməsi, "Yeni əsrin müqaviləsi" nin imzalanması və sair kimi biribirindən əhəmiyyətli hadisələr Azərbaycanın dünyanın enerji təhlükəsizliyində yeri və rolunu möhkəmləndirir.

Azərbaycan müstəqillik tarixinə qızıl hərflərlə yazılan 2020-ci il 27 sentyabr

2020-ci il sentyabrın 27 -də başlayan 44 günlük Vətən müharibəsi ilə Azərbaycan 30 il işğal altında olmuş torpaqlarımızın erməni işğalından azad etdi. Bu hərbi, siyasi, diplomatik qələbə Azərbaycan Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsidir. 44 günlük Vətən müharibəsi ilə Müzəffər Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyünü bərpa etdi, müqəddəs Qarabağımız işğaldan azad olundu. 2023-cü il ilin sentyabrın 19-da başlayan və 23 saat 44 dəqiqə çəkən antiterror tədbirləri ilə Azərbaycan dövləti Qarabağ bölgəsi üzərində suverenliyini tam bərpa etdi. Bölgədə kök salan separatizm ləğv olundu, terrorçu idioloqlar həbs olunaraq Azərbaycan hüquq-mühafizə orqanlarına təhvil verildi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Bu gün artıq Qarabağ münaqişəsi mövcud deyil. Yalnız azad olunan, yenidən qurulan və qurulması fonunda inkişaf edən Qarabağımız mövcuddur. Biz bir xalq olaraq Prezident İlham Əliyevin dediyi kimi əbədi olaraq Qarabağımızda, o dilbər diyarda yaşayacağıq. Bütün bunlar bir daha təsdiqləyir ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqillik tarixində qoyduğu izlər, əsasını qoyduğu işlər, Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezident İlham Əliyevin apardığı siyasət bundan sonra da ölkəmizə böyük qələbələr qazandıracaq.

İLHAM ƏLİYEV

“Novruz dünya bayramları arasında öz yeri olan bayramdır”

”Novruz bayramı Azərbaycan xalqının taleyində və tarixində ən mühüm bayramlardan biridir”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib. O bildirib ki, hər şeydən əvvəl Novruz bayramı təbiətin oyanışı günlərinə təsadüf edir: ”Qışdan sonra təbiətin oyanması, eyni zamanda insanların arzularının oyanması deməkdir. Bu mənada Azərbaycan xalqı min illər boyu bu Novruz bayramını keçirmiş, arzu və istəklərini bu bayramda ifadə etmişdir. Təsadüfi deyil ki, Azərbaycan Çar Rusiyasından qurtulandan sonra Azərbaycandakı milli bayramlardan biri də Novruz bayramı idi. 1919-1920-ci illərdə bu bayram Azərbaycan xalqı tərəfindən dövlət səviyyəsində keçirilmişdir. 1920-ci ilin aprelindən sonra isə bu bayramın rəsmi dövlət şəklində keçirilməsi qadağan olundu. Ancaq Azərbaycan xalqı hansı formada olursa-olsun, Azərbaycan xalqı çərşənbələri və Novruz bayramını uğurla keçirirdi. Ona görə də, Novruz bayramı min illər boyu Azərbaycan xalqının birləşməsi deməkdir, bir ideya uğrunda mübarizəsi deməkdir. Azərbaycan xalqının dünya xalqlarına humanizmi və məhəbbəti deməkdir. Novruz bayramında bütün insanlar yaşından asılı olmayaraq hamı sevinir. Kiçik yaşlı uşaqların papaq atması, hansısa evlərə getməsi, həmin evlərdə sevinclə qarşılanması, papaqlarına şirniyyatın, yumurtanın qoyulması sadəcə yemək vasitəsi deyil, bu, insanların bir-birinə məhəbbətidir. Eyni zamanda Novruz bayramında bütün insanların qəbir üstünə getməsi, valideynlərini ziyarət etmələri, həm də qəbir üstündə olan insanların bir-biri ilə görüşməsi də Novruzdan gələndir. Küsülülərin barışması da, ehtiyacı olan insanlara yardımın göstərilməsi də Novruz ideyalarıdır.

Xoşbəxtlikdən Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Novruz ənənələri yenidən vüsət aldı. Xüsusilə də, Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanımın Novruz bayramı ilə bağlı himayəçiliyi və bu bayramımızın dirçəldilməsi, bunun dünyaya töhfələr verməsi onu göstərir ki, Azərbaycan dövləti, Prezident İlham Əliyev, birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən bu bayrama xüsusi önəm verilir. Ümummilli Lider Heydər Əliyev də həmişə Novruz günlərində İçərişəhərə daxil olub, bütün insanlarla qucaqlaşıb, onların bayramını təbrik edib. Hətta Novruzla bağlı bir çox bayramların da iştirakçısı olurdu. 44 günlük Vətən müharibəsindən sonra Şuşada ilk Novruz tonqalı qalandı. İnsanlar 30 ildən artıq idi ki, bunu gözləyirdilə. Şuşa, tarixi torpağımız Azərbaycana qaytarılsın və qaytarildu. İlk bayram ənənələri, şənlikləri burada davam etdirildi. Bu bayramların keçirilməsində həm Azərbaycanın dövlət başçısının, həm də birinci vitse-prezidentin müstəsna xidmətləri var. Təsadüfi deyil ki, birinci vitse-prezidentin təşəbbüsü ilə bayram günlərində hərəmiz ağac əkirik. Ölkəni yaşıllaşdıraq, onsuz da, Novruzun simvolu yaşıllıqdır. Bu bayramın keçirilməsi də, ağacın əkilməsi də Azərbaycan cəmiyyətini, dövlətini möhkəmləndirmək üçün atdığı addımlardan biridir”.

”Novruz bayramını bu gün daha rahat keçirə bilirik. 30 il ərzində milyondan artıq insan öz ev-eşiyindən didərgin düşmüş, Novruz bayramını keçirsə də, ancaq bayramın içində sıxıntı var idi. Ancaq 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın bütün bölgələrində Novruz bayramı Azərbaycan xalqının ürəyincə keçirilir. Yəni xalq, dövlət qalıbdır. Onun əsgəri qəhrəmandır, Azərbaycanın dövlət suverenliyi bərpa olunub və bu Novruz günləri də Azərbaycanın bütün torpaqlarında böyük sevinc hissi ilə keçirilir.”

S. Ağazadə

“Ailədə xoşbəxtlik tez-tez dadılmalıdır”

“Sağlam düşüncəli və təfəkkürlü, nümunəvi insanların formalaşmasında onların böyüdüyü sağlam psixoloji mühitin olduqca vacib rolu vardır”. Bu sözləri SİA-ya açıqlamasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə məsələləri şöbəsinin baş məsləhətçisi Səmra Əliyeva deyib.

Onun sözlərinə görə, nəzərə alsaq ki, insan fərd kimi ailədə gözünü açır və şəxsiyyət kimi ilk olaraq məhz bu mühitdə formalaşmağa başlayır, o zaman ilk öncə ailələrdə müsbət psixoloji iqlimin olmasına önəm vermək lazımdır: ”Ailədə belə mühitin formalaşması ilk olaraq ailə böyüklərindən, valideynlərdən asılıdır. Bu şəxslər emosional və sosial inkişafı dəstəkləyən, ailəni mənfi təsirlərdən qoruyan, ailə üzvləri ilə bir-birlərinə sevgi, qayğı və hörmət çərçivəsində yanaşan və rəftar edən, psixi rifahı dəstəkləyən şəxslər olarlarsa müsbət iqlimi yaratmaq da mümkün olacaqdır. Belə mühit xüsusilə yetkinlik yaşına çatmamış şəxslər üçün olduqca vacibdir. Uşağın şəxsiyyətinin formalaşmasında emosional ehtiyaclarının düzgün qarşılanması, maddi dəstəkdən daha vacibdir. Ailədə düzgün psixoloji mühit yaratmaq üçün nikaha daxil olan şəxslər öncədən ailə münasibətləri və məsuliyyəti, ailədəki rollar, uşaqların qayğısına qalmaq kimi məsələlər barədə məlumatlı olsalar bu məqam müsbət inkişafa töhfə verəcəkdir. Həssaslıq, ünsiyyət, dəstək, hörmət və qayğı, diqqət müsbət və sağlam psixoloji mühitin təməlidir. Ailə qurmaq 2 insanın seçimidir. Ailədə xoşbəxtliyi yaratmaq, onu qoruyub saxlamaq da ən başda məhz bu 2 insandan asılıdır. Xoşbəxtlik nisbi anlayışdır və daimi olmaya bilər. Əsas olan isə anlarda yaşanan xoşbəxtliyi dərk etmək, dada bilməkdir. İnsan xoşbəxtliyi özümü yaradır, yoxsa mütləq ki onun xoşbəxtliyi başqalarından asılıdır? Bu sual da olduqca geniş müzakirə olunur. Bəzən xoşbəxtlik sevdiyin yeməyi yeməkdir, bəzən sevdiyin filmə baxmaq, bəzən isə sağlam olmaqdır. Kimin üçünsə xoşbəxtlik övladlarının yaxşı təhsil almasıdır, kimin üçünsə çoxlu səyahət etmək. Xoşbəxtliyin düsturu yoxdur. Onu yaratmağı və yarananda dadmağı bacarmaq isə bir qabiliyyətdir. Çünki çox insan əlində olan xoşbəxtliyin dəyərini bilmir. Belə olan halda isə ətrafa yalnız neqativ hisslər ötürür. Xoşbəxt insan həm də pozitiv insandır. Pozitiv insan isə ailəsində, ətrafında olan hər kəsə bu pozitivliyi ötürməlidir. Sözsüzki daimi xoşbəxtlik anlayışı yoxdur. Çünki həyatın reallıqlarında problemlər də, çətinliklər də yaranacaqdır. Əzmli və güclü olaraq bu çətinliklərin öhdəsindən gəlmək özü də həmin insana xoşbəxtlik hissi yaşadır. Ailə elə bir məfhumdur ki, orada xoşbəxtlik tez-tez dadılmalıdır. Bu hissdən bütün ailə üzvləri öz nəsibini alaraq, bu hissi zəncirvari şəkildə cəmiyyətdə də bölüşməyi bacarmalıdırlar. Xoşbəxt şəxs həm də faydalı şəxsdir.”

Söylü

Zombiyönümlü təhsil sistemi

Elçin Bayramlı

Təhsil sahəsində problemlər bitib-tükənmək bilmir. Hər il müxtəlif gülünc yeniliklər ortaya çıxır. Son dövrlərdə tətbiq edilən hər bir qayda, hər bir yenilik təhsil sisteminə ancaq zərər vurmaqla nəticələnib. Statistikalar və müşahidələr vəziyyətin daha da pisləşdiyini göstərir. Bəzən elə məntiqsiz addımlar atılır ki, təəccübdən hamının əli üzündə qalır. Məsələn, tədris ili başa çatmasına bir neçə ay qalmış imtahanların keçirilməsi tamamilə məntiqsiz və biabırçı bir tədbirdir. Dərs ilinin bitməsinə 3 ay qalmış necə imtahan ola bilər? Bu suala heç bir məntiqli cavab yoxdur. Bu imtahandan sonra isə həmin ilin dərsləri faktiki olaraq keçirilmir.

Təhsil səviyyəsinin getdikcə aşağı düşməsi probleminin günahı nə müəllimlərdə, nə də şagirdlərdədir. Son illərdə təhsil sahəsində vəziyyətin getdikcə pisləşməsi bu sahədə həyata keçirilən absurd eksperimentlərlə bağlıdır. Yəni, problemin kökündə Elm və Təhsil Nazirliyi dayanır. Artıq məktəblər faktiki olaraq təhsil verə bilmir. Orta məktəblərin təhsil göstəriciləri biabırçı həddədir. Ali məkltəbə qəbul olmaq üçün məktəbə yox, mütləq şəkildə hazırlıq kurslarına, repetitor yanına getmək lazımdır və valideyn hər uşağa görə ayda ən azı 300-500 manat bunun üçün ödəməlidir. Yalnız imkanlı valideynlər bunun öhdəsindən gələ bilir, əhalinin imkanlı olmayan hissəsinin uşaqlarının ali məktəbə qəbul olunma şansı minimuma düşür.

Son vaxtlar suallar xeyli asanlaşdırılıb, keçid balları xeyli aşağı salınıb, lakin bununla da abituriyentlərin göstəriciləri qalxmır, əksinə aşağı düşür. Hətta 150-200 balla universitetlərə daxil olma səviyyəsinə qədər enmişik. (Yəni, 5 ballıq sistem üzrə götürsək, 1, 2 qiymətlərlə!

Savadsız kütlənin ali məktəblərə daxil olunması prosesi kütləviləşir və sabah bu savadsiz kütlə bizi idarə edəcək. Lakin problem təkcə tədrisin səviyyəsi ilə bağlı deyil, həm də tərbiyənin aşağı düşməsi ilə bağlıdır. Elm və Təhsil Nazirliyinin tətbiq etdiyi eksperimentlər, kurikulum sistemi, ”şagirdyönümlü tədris proqamı” adı ilə tətbiq olunan sistem məktəblərdə tamamilə anarxiya və özbaşınalıq yaradıb. Məktəbin və müəllimin tərbiyə funksiyası əlindən alınıb, onlara şagirdlərə yalnız texniki olaraq təhsil vermələri tapşırılıb. Halbuki, məktəb ta qədimdən təlim və tərbiyə ocağı olub. Bu sistemi niyə dağıtdılar, aydın deyil.

Bəzi QHT-lərin nümayəndələri uşaqlara, onların hüquqlarının olduğunu, onlara ”istədiyinizi edə bilərsiniz, müəllim kimdir ki, sizə nəsə desin” tipli ”faydalı” məlumatlar verirlər. Uşaqlar isə öz növbəsində bu kimi fürsətlərdən necə lazımdır istifadə edir. Uşaqların tərbiyəsiz davranışlarına qarşı müəllim tərəfindən görülən tənbehin sonu isə müəllimin cəzalandırılması, əksər halda isə onun işini itirməsi ilə nəticələnir. Nəticədə, şagirdlər məktəbdə, dərsdə hər cür özbaşınalıq edir, müəllimlərə tabe olmur, hətta onları təhqir edirlər.

Ən gülməlisi odur ki, bütün bu rəzalətin adı ”şagird yönümlü təhsil sistemi” qoyulub. Xeyr cənablar, bağışlayacaqsınız, bu şagird yönümlü təhsil deyil, bu zömbiyönümlü təhsil sistemidir.

İldən ilə vəziyyət daha da pisə doğru gedir. Aparılan əcaib və zərərli eksperimentlər dayandırılmalı, məktəblərin tərbiyə səlahiyyətləri bərpa edilməlidir.

Problem təkcə məktəbdə deyil, həm də evlərdədir. Valideynlərin çoxu uşaqlarına tərbiyə verməyi dayandırıb. Bəzi xəstə psixoloqlar onları aldadıblar ki, uşaqlara qətiyyən heç nə deməyin, qoy nə istəyirlər etsinlər, azad böyüsünlər. Bu xüsusi düşünülmüş şeytani tezis ilə uşaq hər şeyin mərkəzinə gətirilib. Bu təbliğatın nəticəsi olaraq, tərbiyəsiz, qudurğan, özbaşına bir kütlə yetişdirilir. Onlar öz ailələrində ala bilmədikləri ”tərbiyə”ni məktəbdə və ictimai yerlərdə nümayiş etdirirlər. Heç bir tənbeh, cəza görməyən uşaqlar tamamilə qudurğan, harın, tərbiyəsiz hərəkətlər edirlər. Müəllimlər artıq bu kimi hallardan cana yığılıb.

Uşaq 2 yerdə tərbiyə ala bilər- evdə və məktəbdə, hər ikisində tərbiyə sistemi yoxa çıxıbsa, artıq heç bir təhsildən, şəxsiyyətin inkişafından söhbət gedə bilməz. Çünki tərbiyə təhsildən hardasa 10 milyon dəfə daha vacib və daha üstündür.

Məktəblərlə yanaşı, valideynlər də uşaqlara tərbiyə verməlidir. Yaramaz hərəkətlər edən, hətta cinayət törədən uşaqların valideynləri ciddi cəzalandırılmalıdır. Bu kimi halların qarşısı alınmazsa, gələcəkdə kriminal ünsürlərin sayı olduqca artacaq, cəmiyyətdə mənəvi deqredasiya daha da sürətlənəcək. Nazirlik nəinki, bu sahədəki neqativ hallarla bağlı heç bir addım atmır, əksinə ağır dərs yükü ilə uşaqların psixologiyasını pozur. Aşağı və orta siniflərlər az qala akademik təhsil verməyə cəhd edirlər. Başa düşməliyik ki, biz insan yetişdirməliyik, beyinləri müxtəlif biliklərlə doldurulan, bəzi test suallarını əzbərlərək sualların 5-də 1-nə cavab verib ali məktəbə soxula bilmiş zombilər lazım deyil.

MİNASİBƏT

“Bizim özümüzün mental dəyərlərimizdə çox yaxşı cəhətlər var”

“Mental dəyərlərimizdən irəli gələrək, Azərbaycan valideyni, ata-anası, hətta baba-nənələri belə, yenicə doğulmuş uşaqlara həddindən artıq böyük təzyiqlər və təsirlər göstərirlər. Bunun müsbət və mənfi tərəfləri vardır. Nə qədər qəribə səslənsə də, müsbət tərəfləri artıq get-gedə arxa plana keçməyə başlayır. Dünyanın hər yerində belədir ki, valideyndən çox ictimai təsisatlar yəni, bağçalar, uşaq mərkəzləri, natamam orta məktəb, tam orta məktəb, ali məktəb, texniki peşə məktəbləri, liseylər və s. bu kimi öyrətmə-pedaqoji müəssisələr hər hansı bir gənc nəslin formalaşmasında, tərbiyələnməsində, gələcəkdə cəmiyyət üçün yararlı vətəndaş kimi böyüməsində çox böyük rol oynayır”. Bu sözləri SİA-ya açıqlamasında yazıçı, kulturoloq Aydınxan Əbilov deyib.

Onun sözlərinə görə, uşaq və yaxud yeniyetmənin istəyindən asılı olmayaraq, onu 15 müəllimin yanına hazırlığa göndərirlər. ”Mütləq həkim olmalısan, polis olmalısan, hüquqşünas olmalısan” deyib, diqtələr edirlər. Bu da həmin insanın peşəkar bir peşə sahibi kimi formalaşmasında çox mənfi izlər buraxır. Əgər gənc nəsil nümayəndəsi o sahəni sevmirsə, o sahəyə getmirsə, ona təzyiq göstərmək əlbəttə ki, düzgün deyil. Hər dəfə abituriyentlər imtahan verən zaman uğursuz nəticə əldə etdikdə və ya uğursuzluğa düçar olanda, onlar nə qədər depressiyaya düşürlər, nə qədər gərginlik yaranır. Sonra isə öz həyatlarında, iş yerlərində, təhsil müəssisələrində bu gərginliyi, depressiv xüsusiyyətləri başqalarına ötürürlər.

Bəlkə boşanmaların böyük səbəbi bundadır. Bəlkə də özləri gələcəkdə valideyn olanda yenə də öz uşaqlarına onların natamamlıq kompleksindən irəli gələn təzyiqləri göstərməyə başlayırlar. Ana-atadan, baba-nənədən aldığı təzyiqləri öz uşaqlarına göstərməyə başlayırlar. Təəssüflər olsun ki, hər dəfə Azərbaycanda bir neçə abituriyent məhz vaxtında uğur qazana bilmədiyinə görə özünə qəsd edir. Bu da istər-istəməz həm Azərbaycan cəmiyyətində, həm də gənclər arasında, eləcə də nəsillərarası münaqişələrə səbəb ola bilir. Bunun qarşısını almaq mümkündürmü?

Yazıçı, kulturoloq qeyd edir ki, aparıcı pedaqoji və o cümlədən estetik, etik, mədəni və kulturoloji dəyərləri və texnologiyaları götürmək şərti ilə pedaqoji bilikləri mənimsəmək, dünyada uğur qazanmış ölkələr və cəmiyyətlərdəki təcrübələrdən yararlanmaq lazımdır: ”Azərbaycanda da mental dəyərləri müəyyən mənada qorumaq şərti ilə tətbiq etmək lazımdır. Yəni şagirdləri və yaxud yeni nəsil nümayəndələrini təzyiqlə, şiddətlə deyil, həvəsləndirməklə, yönləndirməklə, onların azadlığına və bir şəxsiyyət kimi qəbul edilmələrinə hörmət edərək, hansısa bir peşə sahibi olmağa və ya ailə qurmağa kömək etmək daha önəmlidir. Bilirsiniz, artıq 9 yaşından sonra yox, 6 aylıqdan sonra doğulmuş bir insanın şəxsiyyət kimi formalaşmağını müasir pedaqoji biliklər qəbul edir. Psixoloji texnologiyalar bunu təsdiqləyir. Hətta bəzi psixoloqlar və ailəşünaslar hesab edirlər ki, ana bətnində artıq 3 aylığından etibarən dölün müəyyən şüuru formalaşır, genetik kodları işə düşür. Məhz həmin vaxtdan etibarən şəxsiyyət kimi formalaşdırılması və uşağa bir şəxsiyyət kimi yanaşılması vacibdir. Ona heç bir təzyiq göstərmədən, amma sərbəstlik deyil, azadlıq verərək tərbiyələndirmək tövsiyə edilir.

Azərbaycanda bu varmı? Biz 18 yaşında, hətta bəzən 20 yaşında əsgərlikdən gəlmiş gəncin belə sözünü kəsirik, qızların öz həyatını qurmasına qəti etiraz edirik, 15 yaşında ərə verməyə çalışırıq. Kitab almaq, diplom sahibi olmaq, universitetə daxil olmaq əvəzinə qızlara cehiz almağı təşviq edirik, onları ərə getməyə motivasiya veririk. Oğlanlarımıza ”sən kişisən, fəhlə də işləyə bilərsən, eybi yox, dərs oxuma, kitab oxuma” deyirik. İndi məlum olub ki, təxminən 160 min tələbə qıza rəğmən, cəmi 70 min tələbə oğlan hər il ali məktəblərə daxil olur. Bu isə böyük bir cəmiyyət üçün ciddi problemlər yarada bilər. Necə ki, artıq bu problemləri yaşayırıq. Bütün bunlar olmasın deyə, Azərbaycan cəmiyyətinə təklif edirik ki, bir qədər dünyaya açıq olsunlar, dünya alimlərinin, filosoflarının, ailəşünaslarının təklif etdiyi texnologiyalara önəm versinlər. Bizim özümüzün də mental dəyərlərimizdə çox yaxşı cəhətlər var”.

Zeynəb Cəfərli

Bunu çoxdan demişdik

MƏTANƏT

İstər kişi, istər qadın olsun, sözün düzünü demək insanlıq halıdır. Yəni, bu, həm də bir müşahidə və araşdırma qabiliyyətidir. Azərbaycanda boşanmalara səbəb yaradan əsasən qadınlardır. Baxmayaraq ki, özüm də qadınam, bunu dəfələrlə yazmışıq, ”Səs” televiziyasında yayımlanan ”SOS” verilişində də hələ Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən çox-çox əvvəl demişik.

Bunu dünən Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin təşkil etdiyi ”Konstitusiya və Suverenlik İli” çərçivəsində ”Ailə, qadın və uşaq hüquqları - konstitusion hüquqların əsas prioriteti kimi” mövzusunda ictimai dinləmədə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimova da deyib ki, boşanmaların təşəbbüskarının 70 faizi qadınlardır.

Deyərdim ki, 70 faizdən də artıqdır bu rəqəm. Baxmayaraq ki, qadın haqqında danışırıq, özümüz də qadınıq, lakin fakt budur ki, dünənədək ailənin qoruyucusu kimi tanıdığımız Azərbaycan qadını bu gün ailənin dağılmasında əsas tərəfdir. Maraqlıdır, azərbaycanlı qadın nə üçün bu vəziyyətə gəlib çıxdı? Nə üçün qoruyuculuqdan dağıdıcılığa qədər endi?

Nə istəyir qadın? Azad olmaqmı? Gözəl yaşamaqmı? Axı ailə qurmaq azadlığın əldən getməsi deyil. Gözəl yaşamaqsa ailədən kənardan çox ailə daxilindədir. Bəs nə üçün qadın yuvasını dağıdır, onu qorumaq barədə fikirləşmir? Nə üçün dünyaya gətirib canımın bir parçası dediyi övladına pislik edir, onu atasız böyütməyə çalışır? Nə üçün balanı atadan ayırır? Bəs uşaqların günahı nədir? Kim qadına bu haqqı verir ki, uşağını ataya həsrət edir. Başqa uşaqların bağçadan, məktəbdən götürməyə ataları gedəndə onların arxasınca baxıb köks ötürməsinə, tənhalıq hiss etməsinə əsas verir?

Azərbaycan qadınını kim bu hala gətirir? Nə üçün o, uşaq böyütmək kimi ağır bir vəzifəni təkbaşına üzərinə götürür? Nə üçün ailəsini dağıdır? ”Onlar xasiyyətlərinin uyuşmamasını əsas gətirir”,- deyən Taliyə İbrahimova onu da vurğulayır ki, görünür, daha dərin səbəblər var.

Bu səbəblər haqqında biz çox yazmışıq. Əsas səbəblərdən birincisi üzərində heç bir nəzarət mexanizmi olmayan sosial şəbəkələrdir. Burada qadınlara təqdim olunan, onların gözünü boyayan həyatlar nümayiş edilir. Bir qədər zəif düşüncəyə malik qadın isə bunların hər birinin real həyat olduğunu zənn edir və arzuları genişlənir. Belə olan halda artıq həyat yoldaşını bəyənmir, qazancı onu qane etmir.

İnternet vasitəsilə bütün dünyaya çıxa bilən insan təbii ki, yeni tanışlıqlar da tapa bilir. Bu tanışlıqlar əsasən aldadıcıdır. Verilən gözboyayıcı vədlər əslində o qədər də rəngarəng deyil. Bu vədlərin arxasında uzun illər dayanmır. Keçici həvəs və qısa zaman kəsiyi var.

Sosial şəbəkələrdə qadın qrupları fəaliyyət göstərir. Bu qruplarda gedən söhbətlərdən xəbəri olanlar bilər ki, Azərbaycanda boşanmaların sayı nə üçün hər gün artır və bunun əsas səbəbkarı qadınlardır. Bu qruplarda bizim ailə institutumuzu dağıtmaq üçün sanki təlimatladırılmış qadınlar var. Onlar ailə dəyərlərimizə elə bir zərbə endirir ki, bunun nəticəsini hər il daha çox görür və qarşıda hələ görəcəyik də.

Və əsas səbəbə keçirəm. Bugünkü analar heç də əvvəlki analar kimi mühafizəkar deyillər. Biz görmüşük ki, ailədə bir söhbət yarananda analarımız başımıza ağıl qoyar, ay bala, ailədir, söz-söhbət olar, bağışlamağı bacar, bu gün yoxdur, sabah olar, dözməyi bacar, deyərdilər. Bu gün isə ”dözmək” adlı məfhum sanki göyün yeddinci qatına qalxıb.

Bir evdə, bir ailədə ana-balanın da sözü ola bilir. İnsan cəmiyyətidir, olub, olacaq da. Deməli, bir evdə yaşayan iki ayrı dünyanın insanının da sözü ola bilər. Lakin bu sözü genişləndirmək, onun ucundan yapışıb boşanmaya qədər getmək nə qədər doğrudur? Düşünürəm ki, ya qızlar analarının sözünü dinləmir, ya da analar qızlarının başına ağıl qoymaq qüdrətini itirib. Bax, əsas səbəblərdən biri də budur.

İndi gənc qadına əri bir kəlmə söz deyə bilmir. Sabahı uşaqları da vurub qoltuğuna məhkəmələrə üz tutur. Əsassız bir məsələni ortaya qoyub boşanma davası açır. Boşanma səbəblərini bilmək üçün hakimlərə, vəkillərə müraciət etmək, onlardan səbəbləri öyrənmək, əsasın nə olduğunu aydınlaşdırmaq heç də çətin məsələ deyil.

Azad olmaq istəyir qadın? Ailə nə vaxtdan həbsxana olub?

Əsas məsələlərdən biri isə alimentlərlə və ünvanlı sosial yardımla bağlıdır. Bu hər iki məsələyə düşünürəm ki, əməlli-başlı əl gəzdirilməlidir. Qadının gözünü boyayan alimentdir. Bir də ünvanlı sosial yardım alıb öz dünyasını qurmaqdır. Düşünürəm ki, hər iki məsələnin əlçatanlığı məsələsinə yenidən baxılmalıdır. Hansı səbəbdən boşananlar kateqoriyasına daxil edilməlidir aliment və sosial yardım. Bunu boşanan tərəf də bilməli, buna görə hərəkət etməlidir.

Bax, əsas səbəblərdən bir neçəsini göstərməyə çalışdıq. Yoxa ”xasiyyətimiz tutmur” demək əsaslı bəhanə deyil. Bəhanə həyat yoldaşının qazancının azlığı, qadına istədiyi həyatı verə bilməməsi, işsizlik, mənzil şəraiti və sair sosial problemlərdir. Aid qurumlar gənclərin iş, mənzil təminatı ilə bağlı proqramlar hazırlasın.

Təbii ki, boşanma hallarında həqiqətən xasiyyətin tutmaması, xəyanət, alkoqolizm və narkomaniya, zorakılıq kimi məsələlər də var. Belə olan halda əlbəttə, birgə yaşayış mümkün olmaya bilər. Bunu hər zaman anlayışla qarşılamışıq.

Necə edək ki, əsassız boşanmaların qarşısını alaq? Bu, hər bir azərbaycanlını düşündürən ən birinci məsələ olmalıdır. Birlikdə axtarılan yollar isə sözsüz, fayda verə bilər. Bunu hər zaman demişik, yenə də deyirik.

Yeni dəb: Qadın hesabına yaşayan "KİŞİLƏR"...

Hər şey sürətlə dəyişir. Dünya son əlli ildə, son üç əsrdə görmədiyi sürətlə dəyişdi. Əslində bəşəriyyət bu sürətli dəyişikliyə hazır deyildi və hələ də tam olaraq qəbul etməyib. Dəyişiklik hər sahədə hiss olunur, sosioloji cəhətdən cəmiyyətlərin strukturu, davranış modelləri də dəyişir. Təbii ki, qadınlar və kişilər də dəyişir.

Digər tərəfdən, kişi-qadın münasibətlərində bütün adi qaydalar və yazılmamış, lakin ümumi qəbul edilmiş vərdişlər sürətlə dəyişir. Əvvəllər kişilər qadınlara hesabı ödəməyə imkan vermirdisə, bu gün kişilər demək olar ki, heç vaxt hesabı ödəmirlər. Son bir neçə ildə təkbətək görüşdüyüm qadınlardan kişilərlə bağlı eşitdiyimiz tənqidlər belədir: "Mən bu oğlanla tanış olmuşam, yaraşıqlı oğlandır, hətta varlı adamdır, amma əli heç vaxt cibinə girmir. Hər şeyi mən ödəyirəm!"

Əvvəllər belə vəziyyət ağlasığmaz olardı. Çünki hesabı kişilər ödəyirdilər. Qadınların sosial həyatda sürətli yüksəlişi və iş mühitində iştirakı, öz pulunu qazanması bir ölkə iqtisadiyyatını yüksəldən ən sürətli faktorlar olsa da, bəzi kişilərin pul xərcləməyərək bu vəziyyətdən istifadə edərək bütün xərcləri qadınların üzərinə qoyması xalis fürsətçilikdir. Başqa izahı yoxdur. Təbii ki, qadının buna icazə verməsi və münasibətdə bütün maddi məsuliyyəti öz üzərinə götürməsi bu vəziyyətə səbəb olur. Görək bəzi kişilər qadınlara necə pulla yaxınlaşıb pullarını oğurlayırlar.

SİA mövzu ilə bağlı araşdırma aparıb. İndiki vaxtda boşanmaların sayı sürətlə artır. Amerika dünyada boşanmaların ən yüksək olduğu ölkədir. Rəqibsiz 52% boşanma nisbətinə malikdir. Halbuki, ölkəmizdə boşanmaların tempi dünyada demək olar ki, rəqibsizdir. Bunun səbəbi gənclərin evlənmədən əvvəl "evlilik analizi" etməmələridir. Təəssüf ki, ən kiçik sərmayəni belə analiz edən insanlar evlilik kimi həyatın ən vacib qərarını verərkən heç bir analiz etməyə ehtiyac görmürlər. Əslində, bu da tragikomik vəziyyətə işarə edir. Ətrafda bu qədər boşanmalar olsa da, evlənəndə heç kim "mən də boşana bilərəm" deyə düşünmür. Onlar "bu, heç vaxt mənim başıma gəlməyəcək" kimi qeyri-real illüziyaya qapılırlar.

Boşanmaların sayı artdıqca, boşanma prosesində yüksək təzminat alaraq ərindən boşanan qadınların sayı da sürətlə artmışdır. Həmin qadınlar təzminat və aliment kimi gəlirlər əldə ediblər. Üstəlik, bəzi qadınlar boşandıqdan sonra böyük bir emosional boşluq yaşayırlar və elə o vaxt başlarını çiyninə qoya biləcəkləri bir kişiyə ehtiyac duyurlar. Bu zaman pul iyi alan kişi hadisə yerinə daxil olur. Film başlayır.

İstanbulda 35-40 yaşdan yuxarı qadınların, boşanmış, işləyən və varlıların iş saatlarından sonra vaxtlarını keçirdikləri yerlərin sayı artıb. Beləliklə, bəzi yerlərdə bu qadınları bir yerdə tapa bilərsiniz. Pul yeyən kişilər burada tanış olduqları qadınların yeni boşandıqlarını, hətta boşanma işinin təfərrüatlarını da bilirlər. Çünki bu yerlərdə həmişə eyni adamlar dolanır və sıx qeybətlə məlumat əldə etmək olur. Pul iyi alan kişilər hədəflərini müəyyən edir və bu yerlərdə boşanmış qadınlarla görüşürlər. Bunu investisiya kimi görürlər. Məsələn, təvazökar olmayan büdcəni kənara qoyub dəbdəbəli maşın icarəyə götürürlər, sonra da hədəflədikləri yüksək təzminatı alıb, boşanan qadınla görüşdükdən sonra hesabı ödəyib bir müddət varlı, yaxşı qazanan kişi rolunu mənimsəyiblər. Yəni qadının tam etibarını qazanana qədər. Qadın bu adamın çox yaxşı bir işi və gəliri olduğuna inandıqdan sonra, o, getdikcə xərcləri öz üzərinə götürməyə başlayır. Bunu adi hal kimi qəbul edir.

Səksəninci-doxsanıncı illərdə belə bir fikir var idi ki, "qadınlar kişilərin pulunu yeyir". Lakin bu gün bu təsəvvür tamamilə dəyişib. Bəli, hələ də belə bir fikir var ki, qadınlar kişilərin pulunu yeyir, amma pul yeyən kişilərin sayı da sürətlə artır. Kişilər əvvəllər etmədikləri işləri görməyə başlayıblar. Onlar qurbanla oynayaraq qadının emosiyalarını oyadırlar.

Ana sevgisi qadının özündən aşağı və köməyə ehtiyacı olan kişiyə duyduğu sevgidir. Verən sevgidir. İdeal bir münasibətdə, tərəflər yalnız verənlər deyil. Onların həm verən, həm də alan olması vacibdir. Bəzi kişilər qurban ədəbiyyatı oynamaqla qadının onlara yazığı gəlməsini və bununla da qadının pulunu yeməyi öyrəniblər. Zaman dəyişdi, oyun dəyişdi və oyunun qaydaları dəyişdi.

İnsanların ona yazığı gəlməsinə səbəb olan kişi qurban ədəbiyyatı ilə hər hansı bir qadını heyran edə bilərmi? Yaxud hansı qadını heyran edib onun pulunu ala bilər? Bu suallar əslində hər şeyi izah edir. Qadın enerjisi olan qadın qarşısında güclü – ALPHA – kişi görmək istədikdə, onun qurban rolunu oynaması bu qadını xəstələndirir və tez bu kişidən uzaqlaşır. Ona pul vermək bir yana, o, münasibətini bitirəcək, çünki ağlayan, davamlı şikayətlənən və həyatda uğur qazana bilməyən kişi passiv xarakter quruluşu ilə bu qadını iyrənc hesab edə bilər. Qadın olmaq deyilən bir ifadə var: qadın enerjisinə sahib olmaq və tam qadın olmaq. Bu qadınlar münasibətdə və ya evlilikdə ƏSL KİŞİ görmək istəyirlər. Öz işlərinin öhdəsindən gələ bilən, yaşamaqda təcrübəli, həyatda çətinliklərin öhdəsindən gələ bilən, tamamilə kişi enerjisi olan heteroseksual kişi.

Dünya dəyişir, sosial strukturlar və cinslər dəyişir. Məhz bu səbəbdən kişi enerjisi olan qadınların sayı artır. Bu qadınlar ALPHA KİŞİLƏRİ sevmirlər. Onlar özlərindən tamamilə asılı olan, yönləndirə bildikləri, sözlərindən dönməyən, müxtəlif məsələlərdə ehtiyacı olan kişiləri sevir, onlarla birlikdə olmağı sevirlər. Bu qadınlarda həm kişi enerjisi, həm də ana sevgisi var. Həyatda uğur qazana bilməyən, köməyə ehtiyacı olan bir insanı müəyyən etmək, ona dəstək olmaq və o kişinin yüksəlişində pay sahibi olmaq. Onların bilmədiyi bir şey var: O adam yüksələ bilməz, çünki o adamın genlərində "kişi enerjisi", uğur hissi, özünə inam yoxdur. Bunlar tamamilə genetikdir, kurs və ya təlim vasitəsilə əldə edilə bilən xüsusiyyətlər deyil. Bu qadınlar öz həyatlarında uğur qazanırlar və bu kişiyə eyni uğuru qazana bilməsi üçün əllərində olan hər şeyi verməyə hazırdırlar, lakin onu yuxarı çəkməyə çalışarkən, hər zaman verməyə və verdikcə itirməyə başlayırlar. Uduzan kimi məyus olurlar və sonra yüksək səslə klassik sualı verməyə başlayırlar: "Niyə kişilər məni həmişə passiv və bacarıqsız hesab edirlər?"

Onlar səni tapmırlar, sən idarə edə bildiyin sərişтəsiz kişilərdən xoşlanırsan və sənin pulunu yeyirlər. Qeyd edək ki, günümüzdə qadın hesabına kişilərdən agah olan qızlar artıq ailə qurmaq. Düşünür ki, qarşısına çıxan 10 kişidən 9-u ona pul mənbəyi kimi baxır.

Ayşən Vəli

Hamıya sülh, Tehrana sanksiyalar...

BMT Təhlükəsizlik Şurasının üzvləri martın 12-də İranın nüvə proqramını müzakirə etmək üçün qapalı iclas keçirib. Səbəb Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) məlumatı idi ki, İran cəmi bir neçə ay ərzində silah səviyyəsinə yaxın zənginləşdirilmiş uran ehtiyatlarını iki dəfə azaldıb. ABŞ prezidenti Donald Trampın administrasiyası bu yaxınlarda Tehrana sərt sanksiyalar təzyiqi ilə hədələyərək nüvə proqramını məhdudlaşdırmaq üçün yeni saziş bağlamaq təklifi göndərib.

BMT Təhlükəsizlik Şurasının iclası çərşənbə günü ABŞ, Böyük Britaniya, Fransa və bir sıra digər ölkələrin tələbi ilə çağırılıb. Nüvə proqramının müzakirəsinə təkan verən BAEA-nın son nəticələrinə görə, İranın 60% zənginləşdirilmiş uran ehtiyatı cəmi bir neçə ay ərzində 182-dən 275 kq-a yüksəlib. Bu, nüvə enerjisinin dinc xarakter daşıdığını açıq şəkildə bəyan edən bir dövlət üçün qeyri-adi yüksək rəqəmlərdir. Ekspertlərin fikrincə, 60% zənginləşdirilmiş nüvə materialından kütləvi qırğın silahları üçün lazım olan 90%-ə sıçrayış bir neçə həftə ərzində edilə bilər. Bundan əlavə, MAQATE müəyyən edib ki, İran nüvə obyektlərində yeni, qabaqcıl sentrifuqalar quraşdırmaqla öz imkanlarını artırıb.

İranın xarici işlər naziri Abbas Əraqçi BMT Təhlükəsizlik Şurasında nüvə proqramı üzrə məsləhətləşmələrin çağırılması təşəbbüsünü tənqid edib. İran diplomatiyasının rəhbəri vurğulayıb: "Bəzi ölkələrin tələbi ilə qapalı iclasın keçirilməsi yeni və qəribə təcrübədir". "Bu görüş onun keçirilməsini tələb edən dövlətlərin xoş niyyətini şübhə altına alır". Nazirin qınaması, yəqin ki, ilk növbədə, son vaxtlara qədər İslam Respublikası ilə nüvə məsələlərində yeni əməkdaşlıq formatı barədə razılığa gəlməyə çalışan Avropa ölkələrinə ünvanlanıb. Əraqçinin sözlərinə görə, Tehran ümid edir ki, Təhlükəsizlik Şurası "əsas vəzifəsini - sülh və təhlükəsizliyin qorunmasını" yerinə yetirəcək və xarici təsirlərə boyun əyməyəcək.

Tramp bu yaxınlarda İranda qərarların verilməsinə cavabdeh olan Ayətullah Əli Xameneiyə mesaj göndərdiyini açıqlamışdı. Bu, İranın nüvə proqramının məhdudlaşdırılması ilə bağlı razılığa gəlmək təklifidir. Ağ Evin rəhbəri bir daha təkrar edib ki, Tehran "nüvə silahı əldə etməməlidir", lakin Vaşinqton, onun təbirincə, "sövdələşməyə üstünlük verəcək". Tramp onun parametrlərini açıqlamayıb. ABŞ prezidenti sadəcə olaraq əlavə edib: "Mən dedim: Ümid edirəm ki, siz danışıqlar aparacaqsınız, çünki bu, İran üçün daha yaxşı olacaq. Düşünürəm ki, iranlılar bu məktubu almaq istəyirlər". Əgər Tehran dialoqdan imtina edərsə, ABŞ administrasiyası hərəkətə keçəcək, Tramp vəd edib və ehtimal ki, İranın nüvə infrastrukturuna zərbələr endirilməsi ilə bağlı ssenariyə işarə edib. Son aylar İsrail dərin və yaxşı möhkəmləndirilmiş hədəfləri məhv etmək üçün genişmiqyaslı əməliyyat keçirmək üçün ABŞ-dan fəal şəkildə icazə istəyir.

ABŞ ictimaiyyətə açıq şəkildə bildirir ki, hələlik İranı iqtisadi təzyiq vasitəsilə danışıqlara sövq edəcək. ABŞ-ın maliyyə naziri Scott Bessent keçən həftə deyib ki, Tehranın iflasa uğraması Vaşinqtonun "yenilənmiş sanksiya siyasətinin" qeyd etməli olduğu şeydir. Onun sözlərinə görə, Amerika tərəfi İslam Respublikasını iqtisadi təhlükəsizlikdən məhrum edəcək - onun neft sektorunu siləcək, beynəlxalq maliyyə sisteminə çıxışını kəsəcək, həmçinin müdafiə sənayesini lazımi imkanlardan məhrum edəcək. Mənbələrin verdiyi məlumata görə, son həftələr Ağ Ev İran neftinin xarici alıcılarını onunla iş görməkdən çəkindirmək üçün İran neft tankerlərinin ələ keçirilməsi ilə bağlı ssenarilər üzərində düşünür. Agentlik bildirib ki, ABŞ belə gəmilərin, hətta Yaxın Şərqdən kənarda yerləşən əsas gəmi yollarından keçən irimiqyaslı yoxlamalara icazə verə bilər. Hesablamalara görə, bu cür hərəkətlər qısa müddətdə İran neftinin ixracını təxminən gündə 750 min barel azalda bilər. Amma bu cür sanksiyaların effektivliyi zaman keçdikcə azala bilər, mənbələr deyir.

ABŞ-ın energetika naziri Chris Wright bu yaxınlarda qeyd edib ki, Tramp sonuncu dəfə prezident olanda İran neftinin ixracı minimum səviyyəyə düşüb. Bayden sanksiyaları ləğv etmədi, lakin o, sanksiyaların tətbiqini dayandırdı, bu da İranı zənginləşdirdi. Bununla belə, Tehran indi bütün əlamətlərə görə ABŞ-la danışıqlar prosesini bərpa etmək fikrindən tamamilə imtina edib. Keçmiş prezident Cozef Baydenin dövründə dolayı məsləhətləşmələr aparılıb, lakin sonra dondurulub. "Amerikalıların əmr verməsi və təhdid etməsi bizim üçün qəbuledilməzdir. Mən heç sizinlə danışıq aparmayacağam", bunu bir vaxtlar Qərb ölkələri ilə sövdələşməyə hazır olan "mötədil" siyasətçi imicinə malik olan İran prezidenti Məsud Pezeşkian deyib. Bu yaxınlarda isə "Nə istəyirsən et", deyə Vaşinqtona mesaj göndərib.

Öz növbəsində, İran parlamentinin milli təhlükəsizlik və xarici siyasət komitəsinin üzvü Fəda Hüseyn Məleki qeyd edib ki, Vaşinqtonla dialoq üçün müvafiq atmosfer yaratmaq lazımdır. "Əgər Tramp həqiqətən danışıqlara inanırsa, bu istiqamətdə ilk addım qəddar sanksiyaların tamamilə ləğvi olmalıdır və bundan sonra danışıqlar milli maraqlar nəzərə alınmaqla davam etdirilməlidir", - deputat izah edib. "Ali dini liderin qərarına əsasən, biz yalnız milli maraqlarımızın qorunduğunu bildiyimiz zaman danışıqlar masasına əyləşəcəyik".

Bu arada Tehran nüvə dosyesi ilə bağlı alternativ formatlarda danışıqlara gedəcəyi ilə bağlı fikirlər sıəsləndirib. Çin Xarici İşlər Nazirliyinin məlumatına görə, bu həftə Çində Çin, Rusiya və İranın iştirakı ilə üçtərəfli görüş keçiriləcək. Ola bilsin ki, Trampın diplomatik təşəbbüsü müzakirəyə çıxarılsın, Rusiya rəsmilərinin dediyi kimi, bu təşəbbüsdə təkcə "nüvə" deyil, həm də siyasi məsələlər var.

V.VƏLİYEV

Çaylar quruyur, fəlakət yaxınlaşır

EKO-TƏHLÜKƏ

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb

Ümumdünya Çaylar Günü hər il martın 14-də qeyd olunan beynəlxalq gündür. Bu günün təsis edilməsində məqsəd ictimaiyyətin diqqətini su ehtiyatlarının qorunmasına, çayların mühafizəsinə və sudan asılı ekosistemlərin qorunmasına cəlb etməkdir. Bu ekoloji təqvim 1998-ci ildə təsis edilib.

Su ehtiyatlarının mühafizəsinin dəstəklənməsi, su ekosistemlərinin, o cümlədən çayların, göllərin, su anbarlarının və yeraltı suların vəziyyətinin həlli dünyanın gələcəyi baxımından mühüm məsələdir.

Buna görə də çirklənməyə diqqəti cəlb etmək, bütün canlıların sağlamlığına təsir edən suyun çirklənməsi ilə mübarizənin zəruriliyi şərtdir.

Suyun və onun ehtiyatlarının qorunmasının vacibliyi haqqında məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirici tədbirlər və kampaniyalar keçirmək müasir dünyanın ən vacib məsələsidir.Ümumdünya Çaylar Günündə dünyanın hər yerində su ehtiyatlarının qorunmasına dair tədbirlər keçirilir, ekoloji sahədə fəaliyyət göstərən QHT və ictimai birliklər çayların su təhlükəsizliyi məsələsindəki rolundan danışırlar.

Çaylar və göllər Yer səthinin 1 faizini əhatə edir, lakin onurğalıların üçdə biri də daxil olmaqla, bütün suda yaşayan canlıların 10 faizinin yaşayış yeridir. Bu canlıların bir çoxu - təxminən 30.000 şirin su canlısının 27 faizi təhlükə altındadır. Bu, bütün şirin su balıqlarının təxminən üçdə biri deməkdir.

Çayların biomüxtəlifliyinə ən böyük təhlükələrdən biri insanlara elektrik enerjisi, su ehtiyatları və digər faydalar təmin edən, lakin ekoloji problemlər yaradan su bəndlərindən qaynaqlanır. Sərbəst axan çayların yoxa çıxması su hövzələrini bir-biri ilə əlaqəsi olmayan parçalara ayırır və suyun axınını, keyfiyyəti və temperaturunu dəyişir. Bu, həmçinin çöküntülərin daşınmasına mane olur və heyvanların, o cümlədən köçəri balıqların köçünə mane olur.

Çaylar, göllər zəhərli kimyəvi maddələrin zibilxanasına çevrilir. Təsərrüfatlarda, əkinçilikdə istifadə

edilən kimyəvi maddələr də çaylara axır. Azot və fosforla zəngin olan bu axıntı suları oksigendən məhrum edir və yosunların həddindən artıq böyüməsinə, sudakı canlıların oksigensiz qalmasına, ölməsinə səbəb olur.

Qlobal istiləşmənin təsirləri artıq bütün dünyada hiss olunur, son illərdə ABŞ, Çin, Almaniya, Fransa və bir çox başqa ölkələrdə çayların quruması ilə bağlı ciddi narahatlıqlar yaşanır. Ekoloqlar deyir ki, vəziyyət daha da pisləşəcək, Amerikanın qərbində növbəti 35-60 il ərzində əhəmiyyətli dərəcədə qar və yağışı itkisi olacağı proqnozlaşdırılır. Daha az qar və yağış çay axınını və qrunt sularını dəyişəcək ki, bu da ərazidəki bir çox bitki və heyvanlara təsir edəcək. Temperaturun artması həm də quraqlıqları artırır və içməli, suvarma və canlı təbiət üçün lazım olan çay sularını qurudur.

Canlıların bəziləri də birbaşa insan tərəfindən digər zərərlər görür. Məsələn, qızılbalıqlar adət etdikləri kimi soyuq su mühitində ya-

şaya bilmir, çünki bəndlərin inşası onları sıxışdırır, beləcə isti su hövzələrinə doğru yönəlirlər, bu da onların sayının azalmasına səbəb olur. İqlim dəyişikliyi səbəbindən həddindən artıq güclü leysanlar, frtınalar torpaqda yığılıb qalmış kimyəvi maddələri və digər zərərli tullantıları çaylara axıdır və beləcə su canlılarının kütləvi ölümü müşahidə edilir.

Dünyada hövzəsinin sahəsinə görə birinci, uzunluğuna görə ikinci olan Amazon çayı da quruyur. Yerli əhalinin içməli su əldə etməsi getdikcə çətinləşir, ekosistem zərər görür. 2023-cü ildə Braziliyanın səkkiz ştatında son 40 ildə ən az yağıntı qeydə alınmışdı. Amazonas ştatında 62 bələdiyyədən 42-si fövqəladə vəziyyət elan etdi. Hazırda bölgədə 250 mindən çox insan quraqlıqdan əziyyət çəkir, ekspertlər yaxın gələcəkdə bu rəqəmin 500 minə çatacağını gözləyirlər.

Ümumdünya Meteorologiya Təşkilatının (WMO) Qlobal Su Ehtiyatlarının Statusu hesabatına əsasən, son beş ildə dünyada çayların səviyyəsi orta səviyyədən aşağı düşüb, su anbarları da aşağı səviyyədə qalıb. Bu, son 30 ilin ən sürətli qurumasıdır. 2023-cü ildə qlobal çay hövzələrinin 50 faizindən çoxu anormal şəraitlə üzləşib. Bu vəziyyət 2022 və 2021-ci illərdə də oxşar idi. Şiddətli quraqlıq şəraiti ilə üzləşən bölgələrə Şimali, Mərkəzi və Cənubi Amerikanın böyük hissələri daxildir. Amazon və Missisipi çaylarında suyun səviyyəsi rekord səviyyədə aşağı düşüb. Dünyanın digər tərəfində, Asiya və Okeaniyada, demək olar ki, bütün hövzə bölgələrində, xüsusilə də əsas Qanq, Brahmaputra və Me-

konq çay hövzələrində normadan aşağı səviyyələr müşahidə edilib.

Ötən ilin hesabatında qeyd olunurdu ki, iqlimin pozulması həm də suyun istiqamətini dəyişir, ekstremal daşqınlara və quraqlığa səbəb olur. Qeyd edək ki, təşkilatın 2023-cü il üçün verdiyi proqnozlarda 2023-cü ilin tarixdə ən isti il olacağı, çayların quruduğu və ölkələr quraqlıqla üzləşəcəyi bildirilirdi.Həmin il bütün dünyada dağıdıcı daşqınlar baş verdi. Daşqınlardan zərər çəkmiş ərazilərə Afrikanın şərq sahilləri, Yeni Zelandiyanın Şimal adaları və Filippin daxil idi. İngiltərə, İrlandiya, Finlandiya və İsveç çaylarında normadan yuxarı axınlar qeydə alınmışdı. Təşkilatın məlumatına görə, iqlimin pozulması bu təbii hadisələrinin təsirlərini daha da pisləşdirir.

WMO-nun baş katibi Selest Saulo deyir: "Ekosistemlərə və iqtisadiyyata ağır zərbə vuran, getdikcə artan normadan artıq yağışlar, daşqınlar və quraqlıqlar təhlükə siqnalıdır. Əriyən buzlaqlar milyonlarla insan üçün təhlükədir. Temperaturun yüksəlməsi nəticəsində hidroloji dövriyyə sürətlənib. Bununla belə, biz lazımi təcili tədbirlər görmürük."

Qeyd edək ki, hazırda 3,6 milyard insan ildə ən azı bir ay suya qeyri-adekvat çıxışla üzləşir və BMT-yə görə bu rəqəmin 2050-ci ilə qədər 5 milyardı ötəcəyi gözlənilir. WMO-nun 2022-ci ilin sentyabrından 2023-cü ilin avqustuna qədərki məlumatlarına görə, buzlaqlar əriməyə davam edərək 600 giqatondan çox su itirib, bu, 50 illik müşahidələr ərzində ən yüksək göstəricidir.

Azərbaycan ərazisində içməyə yararlı sular məhdud ehtiyatlara malikdir və qeyri-bərabər paylanıb. Hazırda ölkənin yerüstü su ehtiyatları 27 kubkilometr təşkil edir, quraq illərdə isə bu ehtiyat 20-21 kubkilometrə qədər azalır. Yerüstü su ehtiyatlarının mənbələrini çaylar, göllər, su anbarları və buzlaqlar təşkil edir. Ölkəmizin şirin su ehtiyatlarının 70-72 faizi ölkə hüdudlarından kənarda formalaşır. Son 1 ildə Azərbaycanın su ehtiyatları minimuma düşüb. Həmişə bol sululuğu ilə məşhur olan Kür və digər kiçik çaylar quruyur. Kürdə suyun səviyyəsinin aşağı düşməsinin səbəblərindən biri Kür çayının mənbəyi olan Türkiyədə bir neçə su anbarının tikilməsidir. Mənbə sularının böyük hissəsi orada toplanılır və çaya az gəlir. İkincisi isə, Kürə axan kiçik çaylar ekoloji səbəbdən quruyub.

Lalə Mehralı

SON SƏHİFƏ
SƏS
14 mart
2025-ci il

“Azərbaycanlılar dünyada ən az boşanan xalqlardan olublar”

EKSPERT DANIŞDI

”Ailə düzgün motivlər əsasında qurulmayanda boşanmalar baş verir. Son dövrlərdə nikahların sayında azalma, boşanmalarda isə artım müşahidə olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin 11 ayında 46 mindən çox nikah, 20 minə yaxın isə boşanma halı qeydə alınıb”. Bu sözləri SİA-ya açıqlamasında sosial məsələlər üzrə ekspert Fatimə Hacıbəyli deyib. Fatimə Hacıbəyli sözlərinə belə davam edib: ”Bəs, boşanmaların artmasına səbəb nədir? Səbəbkar kişilərdir, yoxsa qadınlar?

Boşanma mürəkkəb sosial hadisədir. Azərbaycanlılar dünyada ən az boşanan xalqlardan olublar. Son illər isə ölkədə dağılan ailələrin sayı durmadan artır. Bundan da ən çox əziyyət çəkən uşaqlar olurlar. Hər bir ailənin öz mövcudluğunu qoruyub saxlaması qarşılıqlı sayğının, hörmətin və səmimiyyətin olmasından asılıdır. Digər şərtlər kimi sosial-iqtisadi, mənəvi-intellektual, əxlaqi-etik və bioloji-psixoloji amilləri qeyd etmək olar. Tək iki gəncin bir-birini sevməsi ilə möhkəm özüllü ailə qurmaq olmaz. Sevgi ailənin ilkin bünövrəsi və təməli olsa da sonralar ailənin möhkəm olması üçün digər amillərə də ehtiyac duyulur:

- İqtisadi problemlər;
- Zorakılıq;
- Sevginin bitməsi;
- Pis adətlərin başlanması;
- Cinsi soyuqluq;
- Qadınların baxımsızlığı.

Boşanmaların səbəbkarı kimi yalnız bir cinsi günahlandırmaq düzgün deyil. Qadın özünə daha çox diqqət yetirməlidir. Evlənməzdən əvvəl nişanlı olarkən hər iki tərəf özünə daha çox diqqət yetirir, ən yaxşı tərəflərini göstərməyə çalışırlar. Evləndikdən sonra isə bir-biri üçün adiləşirlər və nəticə etibarilə kişilərin gözü kənar mühitə daha çox meyil edir. Bunun səbəbkarı yenə də qadın özü olur.

Qadınlarla bərabər kişilər də günahkardır. Tənbəllik, işsizlik, maddi sıxıntı bunlar hamısı boşanmanın nəticəsidir. Qeyd edirəm ki. zərərli vərdişlər və .s kişilərdə bunu çox saymaq olar. Təbii ki ən birinci zərərli vərdişlərdir, mənim üçün bir də xəyanətdir. Xəyanət özü elə boşanmağa bir səbəbdir. Bəzən də alimentin gündən günə qalxması elə bilirəm ki, qadınlarda özgüvən əmələ gəlir ki, alimenti alacam və övladımı saxlayacam. Sanki boşanmaya meyil göstərirlər. Amma bilsinlər ki, ailəni qoruyub saxlamaq daha möhtəşəm olar. Sonda bu kişi ilə qadının boşanmasında ən çox əziyyət çəkən uşaqlardır. Uşaqlar da bizim sabahımız və gələcəyimizdir. Onları düşünərək boşanmağa nöqtə qoymalıdırlar.

Bunu da qeyd edim ki, Hindistanda boşanmaların sayı azdır, çünki hər iki tərəf güclü təzminat ödəməlidir boşandıqları zaman. Çox istərdim ki, Azərbaycanda da bu tətbiq olunsun, boşanan zaman qadında kişi də təzminat ödəsin. Aliment qalxdıqca qadınlarda özgüvən yaranır. Sonda bunu düşünürəm ki, ağıllı qadın və ya ağıllı kişi həyatı boyu ailəsini dağıdıb isti aşına soyuq su qatmaz. Heç bir uşaq natamam ailədə böyümək istəməz. Bütün uşaqlar tamam ailədə böyümək istəyir”.

Ayşən Vəli

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

“Telegram”da vətəndaşların 22 min manatını ələ keçirən şəxs saxlanılıb



“Telegram”da vətəndaşları aldadaraq 22 min manatını ələ keçirən şəxs saxlanılıb. DİN-dən SİA-ya verilən xəbərə görə, Sumqayıt şəhər sakini olan iki nəfər ”Telegram” sosial şəbəkəsində tanımadıqları səhifələrdən onlara mesajlar göndərildiyini və onlayn platformalarda paylaşılan məhsulları bəyənib maddi gəlir qazanacaqları vədi ilə aldadılaraq bank kartlarındakı pul vəsaitlərinin ələ keçirildiyi barədə polisə müraciət ediblər.

Sumqayıt Şəhər Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri tədbirlər nəticəsində kiberdələduzluq cinayətlərində iştirak edən 25 yaşlı Xəyal Orucov saxlanılıb. Qeyd olunan hüquqazidd əməllər nəticəsində iki vətəndaşa ümumilikdə 22 min manatdan çox maddi ziyan vurulub. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar aparılır. X.Orucovla birgə kiberdələduzluq əməllərində iştirak edən digər şəxslərin də saxlanılması istiqamətində əməliyyat tədbirləri davam etdirilir.

EKSPERT ŞƏRH ETDİ

Adında kredit olan şəxs sosial ev əldə edə bilər?

”Azərbaycan qanunvericiliyində yəni mənzil qanunvericiliyində sosial mənzilin alınma anlayışı yoxdur. Sosial mənzillər satılmır”. Bu sözləri SİA-ya açıqlamasında mənzil üzrə ekspert Ramil Osmanlı deyib. Onun sözlərinə görə, sosial kirayə müqaviləsi var: ”Sosial kirayədə Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə tənzimlənib. Qanunvericiliyə görə, aztəminatlı və sosial qayğıya ehtiyacı olan müəyyən şəxslər kirayə müqaviləsi bağlamaq üçün dövlət və ya bələdiyyə fondunda olan yaşayış sahələrinin əldə edilməsi ilə bağlı müvafiq qurumlara müraciət etmək hüququ əldə edirlər. Amma bu gün nəzərə almaq lazımdır ki, bələdiyyənin balansında yaşayış fondu demək olar ki, yox səviyyəsindədir, ümumiyyətlə mövcud deyil. Mövcud yaşayış fondunun təqribən 4,5- 4,6 faizə qədəri dövlətin balansındadır. Bu da təbii ki, müxtəlif məqsədlər üçün istifadə olunmuş yaşayış fondlarıdır. Bu mənada yaşayış sahələrinin sosial mənzil formasında satışı qanunvericilikdə təsdiq olunmayıb.

Digər bir məsələ isə adında kredit olarkən sosial ev almaq olarmı? Bu mövzu ilə bağlı onu deyə bilərəm ki, adınızda kredit olduğu halda sosial ev əldə etmək mümkündür, amma bunun müəyyən şərtləri və prosedurları var. Çox vaxt, sosial evlər üçün müraciət edən şəxslərin gəliri və borc yükü yoxlanılır. Əgər mövcud kredit ödənişləriniz sosial evlərlə bağlı tələbləri pozursa, müraciətiniz rədd oluna bilər. Ancaq hər halda, bu məsələdə konkret qaydalar və şərtlər müvafiq dövlət orqanları tərəfindən təyin edilir və hər il dəyişə bilər. Sosial evlərə müraciət etməzdən əvvəl yerli müvafiq qurumlarla əlaqə saxlamaq və mövcud qaydalarla tanış olmaq tövsiyə olunur”.

Ziya Hikmətoğlu

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700